Günəş Şərqdən doğur!

№ 46 (5327), 2021-ci il

Qiymət 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az

12 mart 2021-ci il (cümə)




## Koronavirusa yoluxanların sayı 600-ü keçdi

Daha 128 nəfər sağalıb, 5 nəfər vəfat edib

Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 608 yeni yoluxma faktı qeydə alınıb, 128 nəfər müalicə olunaraq sağalıb.

(Səh.8)

## “Heç bir köməyə ehtiyacım yoxdur"

Səfir: “Dahi Bülbülün Şuşadakı evini öz hesabıma bərpa edəcəyəm”



”Təbii ki, dahi Bülbülün Şuşadakı evini öz hesabıma bərpa edəcəyəm. Bu, mənim atamın evidir”.

(Səh.3)

### Günün içindən...



## “Biz qonşularımızla dürüst şəkildə işləməyə hazırıq"

Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidentini videoformatda qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib.

(səh.2)

## Liderlərin görüşü gözlənilir



“Zəngəzur dəhlizinin açılması masaya çıxarılacaq”

(səh.3)

# 1,9 trilyonluq qanun hazırdır



## Bayden “Amerika qurtuluş planı"nı imzaladı

ABŞ prezidenti Co Bayden ümumi məbləği 1,9 trilyon ABŞ dolları olan qanun layihəsini imzalayıb. ”Amerika qurtuluş planı” adlanan sənədin imzalanma mərasimi ölkənin xəbər kanalları tərəfindən Ağ Evdən yayımlanıb.

(səh.7)

# İnsident yaşanmadı

130 ton humanitar yük Kəlbəcərə çatdırılıb

(səh.9)



## Metyu Brayza narahatdır

Keçmiş həmsədr Bayden hökumətinin Ankara ilə problemlər yaşayacağına işarə edib

(səh.2)

## Gələn qonağa “yox" deməzlər

Əgər ATƏT-in rəhbərliyi, həmsədrlər Qarabağda daşın üstünə daş qoymağa gəlirlərsə, buyursunlar

(səh.5)

## Zamanın melodiyası...

Qaş düzəltdiyimiz yerdə vurub gözü çıxarırıq

(səh.8)

## Mədəniyyət Nazirliyi səssizdir

9 ildir Yaşar Nurinin ailəsinin gözü yoldadır

(səh.14)



## Hədəfi tək atəşlə susdururdu

Qəhrəman snayperçi canını Vətənə fəda edib

(səh.9)



## “Ölümü göz önünə almışdım”

Şuşa fatehi Mirzə Süleymanov: “Bizə içində adlarımızın yazıldığı gilizlər paylananda bildim ki”

(səh.9)

## Prezident qanuna dəyişikliyi təsdiq edib

### Vətən müharibəsində iştirak edən doktorantlara 3 ay möhlət veriləcək

**Prezident İlham Əliyev "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanunu təsdiq edib.**

Qanuna əsasən, Vətən müharibəsində iştirak edən doktorantlara 3 ay möhlət veriləcək.

Qanuna görə, doktoranturaya qəbul üzrə ilk imtahandan müvəffəqiyyətlə keçən çağırışçılara 3 ay müddətinə möhlət veriləcək. İlk imtahandan müvəffəqiyyətlə keçən doktorantlar imtahanlarını verə biləcəklər.

## Metyu Brayza narahatdır

### Keçmiş həmsədr Bayden hökumətinin Ankara ilə problemlər yaşayacağına işarə edib



**Amerikalı diplomat, ATƏT-in Minsk qrupunun keçmiş həmsədri Metyu Brayza "CNN Türk" açıqlamasında Türkiyə-ABŞ münasibətlərindən danışıb.**

"Şərq" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Metyu Brayza Co Bayden Administrasiyasının normal siyasət yeridəcəyindən və Ankara ilə yaxından əməkdaşlıq edəcəyindən narahatlıq duyduğunu deyib: "Bayden hökuməti Türkiyə-ABŞ arasındakı strateji ortaqlığı yeniləmək niyyətində olsa da, Suriyanın şimalındakı YPG-yə dəstək olması vəziyyəti gərginləşdirir. Türkiyənin bu məsələyə necə həssas yanaşdığını bilirəm. YPG-nin bir terror təşkilatı olduğunu da bilirəm. PKK-nın məqsədindən də xəbərdaram. PKK Suriya və İraqa keçəndən sonra adını YPG kimi dəyişdirdi. Barak Obama hökuməti isə YPG-ni "Suriya Demokratik Qüvvələri"nə çevirdi. Bayden hökumətinin bu yanlış siyasəti davam etdirməsindən narahatam. Düşünürəm ki, bu problemi tezliklə həll etmək mümkün olacaq. Yaxşı olar ki, Vaşinqton və Ankara YPG məsələsini sonraya saxlayaraq, öncə başqa məsələlərin həllinə yönəlsinlər. Zamanla araları düzələndən və yaxınlaşma olandan sonra Suriyanın şimalındakı məsələlərə qayıda bilərlər".

Brayzaya görə, əslində tərəflər bir-biri ilə normal münasibət saxlamaqda maraqlıdır: "Hər iki tərəf müəyyən addımlar atmalıdır. Prezident Bayden "Türkiyə-ABŞ münasibətləri çox əhəmiyyətlidir, sanksiyaları qaldıracağam, generallarımın sözlərini dinləməyəcəyəm" sözlərini dilə gətirdi. Bu, çox önəmlidir. Əsas məsələ ABŞ Konqresini razı salmaqdır, çünki qanunun müəllifləri onlardır. Zaman keçdikcə münasibətlər yaxşılaşdıqca, konqres sanksiya qanununun dəyişdirilməsinə qərar verə bilər".

**İsmayıl**

## "Müvəqqəti hökumət qurulmalıdır"

### Paşinyanın əleyhdarları prezidentə şərt qoydu

**Ermənistan müxalifətinin yaratdığı "Vətənin xilası uğrunda hərəkat" ölkədə mövcud vəziyyəti stabilləşdirmək üçün prezident Armen Sarkisyanla görüşə hazırdır.**

Sputnik Ermənistan xəbər verir ki, bu barədə "Daşnaksutyun" Partiyasının nümayəndəsi, hərəkatın əlaqələndiricisi İşxan Saqatelyan bildirib.

"Hərəkatın üzvləri yalnız Nikol Paşinyanın istefasına dair yol xəritəsini müzakirə etmək üçün prezident, baş nazir və parlament fraksiyaları ilə görüşə hazırdır", - deyə Saqatelyan bildirib.

Onun sözlərinə görə, baş nazirin istefasından sonra erkən parlament seçkiləri keçiriləndə qədər müvəqqəti hökumət qurulmalıdır.

# "Biz qonşularımızla dürüst şəkildə işləməyə hazırıq"

## Prezident İlham Əliyev Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidentini videoformatda qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 11-də Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Bassonu və bankın rəhbərliyinin digər nümayəndələrini videoformatda qəbul edib.**

**Qonaqları salamlayan Prezident İlham Əliyev dedi:**

- Xanım prezident, hörmətli xanımlar və cənablar, sizi görməyə çox şadam. Sizinlə gələcək planlarımız barədə söhbət etmək imkanına görə şadam. Əlbəttə, bilirsiniz ki, pandemiya səbəbindən biz videokonfrans vasitəsilə görüşmək imkanından istifadə etməli oluruq. İlk növbədə, mən Bankın Azərbaycana göstərdiyi bu diqqətə görə minnətdarlığımı ifadə etmək istərdim. Düşünürəm ki, demək olar son 30 ildə biz çox güclü tərəfdaşlıq əlaqələri qurmuşuq. Bank ölkənin transformasiyasında, iqtisadiyyatımızın şaxələndirilməsində bizi dəstəkləyib. Bizim 3 milyard avrodan çox məbləğdə layihələrimizin maliyyələşdirilməsi faktı bunu açıq-aşkar nümayiş etdirir. Hazırda bu portfelin yarısının özəl sektora yönəlmiş vəsait olması da mühüm əhəmiyyət kəsb edir. Bu da əməkdaşlığımızın yaxşı göstəricisidir.

Bizim dövlət şirkətləri tərəfindən həyata keçirilən infrastruktur layihələrinə gəlincə, onların demək olar ki, hamısı tamamlanıb. Mənə məlumat verilib ki, bizdə 13 layihə var, onların 12-si uğurla tamamlanıb və sonuncusu tamamlanma prosesindədir. Mən, həmçinin Avropa Yenidənqurma və İnkişaf Bankının bizim enerji layihələrinə, xüsusilə Cənub Qaz Dəhlizinə, onun Avropa Yenidənqurma və İnkişaf Bankı tərəfindən 1 milyard avro məbləğində maliyyələşdirilmiş sonuncu hissəsi olan TAP-a verdiyi dəstəyə görə minnətdaram. Bildiyiniz kimi, ötən ilin son günündə biz TAP və Cənub Qaz Dəhlizinin açılışını qeyd etdik. Bu, həqiqətən də Avrasiyanın enerji xəritəsini dəyişən tarixi nailiyyət idi. Bildiyiniz kimi, hazırda bizim əsas məqsədimiz iqtisadiyyatımızın şaxələndirilməsini davam etdirməkdir. Düşünürəm ki, xüsusilə bu il və ötən il, pandemiyaya baxmayaraq, nəticələr çox ümidvericidir. Ümumi daxili məhsulda müəyyən azalmaya baxmayaraq, bizdə qeyri-enerji sənayesi istehsalında artım var. Bu iki ayda bizdə artım 12 faizdən çox olub. Beləliklə, bu, bizim sənayemizin şaxələndirilməsinin yaxşı göstəricisidir. Biz neft satışlarından topladığımız vəsaiti özəl sektoru, sənaye potensialımızı dəstəkləməyə yönəltməyə nail olduq və qeyri-enerji sənayesində 12 faiz artım həqiqətən də əlamətdar hadisədir.

Hazırda bizim əsas məqsədimiz işğaldan azad edilmiş ərazilərin bərpasıdır. Ermənistan tərəfdən 25 ildən çox, demək olar ki, 30 il davam edən işğal nəticəsində hər şey dağıdılıb. Əcnəbi diplomatlar və media nümayəndələri işğaldan azad edilmiş ərazilərə artıq dəfələrlə səfər ediblər və özləri hər şeyin tamamilə dağıdıldığının şahidi olublar. Şəhərlər dağıdılıb, kəndlər dağıdılıb. Odur ki, biz öz doğma torpaqlarına qayıtmağı gözləyən insanlar, bir milyondan çox keçmiş məcburi köçkün üçün layiqli həyat şəraiti təmin etmək məqsədilə 10 min kvadratkilometrdən böyük bir ərazini yenidən qurmalı olacağıq. Beləliklə, bu, bizim əsas vəzifəmizdir və biz artıq buna başlamışıq. Münaqişənin və müharibənin faktiki sonu olan bəyanatın imzalanmasından yalnız dörd ay keçməsinə baxmayaraq, biz artıq işlərə başlamışıq. Biz indi beynəlxalq hava limanı tikirik, avtomagistrallar tikirik, dəmir yolu xətlərini inşa edirik, artıq başlamışıq. Bu ilin sonuna kimi bütün Qarabağ ərazisi üçün demək olar ki, enerji təchizatını 100 faiz tamamlamağı planlaşdırırıq və bizim bir çox başqa planlarımız da var.

Əlbəttə ki, biz bu məsələlərdə Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığa güvənirik. Mən işğaldan azad olunmuş torpaqları "yaşıl enerji" zonası elan etmişəm. Biz əsasən bərpa olunan enerji mənbələrindən, su, günəş və külək mənbələrindən istifadə etməyi planlaşdırırıq. Bizim böyük beynəlxalq enerji şirkətləri ilə yaxşı iş təcrübəmiz var. Yeri gəlmişkən, Avropa Yenidənqurma və İnkişaf Bankı bu investisiya layihələrinin maliyyələşdirməsində iştirak edir. Ümid edirik, eyni təcrübə azad edilmiş ərazilərdə də tətbiq olunacaqdır. Çünki bərpa olunan enerji mənbələri baxımından orada böyük potensial var. Başqa sözlə, bu, Azərbaycanın və regionun inkişafında yeni bir dövr və ya hətta yeni bir eradır. Demək olar ki, 30 il davam edən Dağlıq Qarabağ münaqişəsi öz həllini tapdıqdan sonra regional inkişaf, regional əməkdaşlıq, bağlılıq üçün yeni imkanlar var və Azərbaycan bunlara hazırdır. Mən artıq ictimaiyyətə bunu açıqlayaraq demişəm ki, biz əməkdaşlıq, düşmənçilik səhifəsini geridə qoymaq, regionda daha yaxşı vəziyyəti və daha da proqnozlaşdırıla bilən vəziyyəti təmin etmək üçün qonşularımızla dürüst şəkildə işləməyə hazırıq. Beləliklə, bu, görülmüş işlərin və bəzi planlarımızın nədən ibarət olmasının kiçik xülasəsi idi. Əlbəttə ki, müzakirələr zamanı biz gələcək tərəfdaşlığımızın praktiki addımlarını daha geniş müzakirə edəcəyik. Görüşmək üçün irəli sürdüyünüz bu təşəbbüsə görə bir daha təşəkkür edirəm. Sizi bir daha görməyə çox şadam.

***

**Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Basso dedi:**

- Cənab Prezident, çox təşəkkür edirəm. İlk təqdimata görə sağ olun. Sizi COVID-19 böhranı ilə bağlı vəziyyətin uğurla idarə olunmasına görə təbrik etmək istərdim. Bütün ölkələr hazırda bu çağırışla üz-üzədir və bu böhran bir çox yerlərdə iqtisadi problemləri şərtləndirir. Digər ölkələrlə müqayisədə sizdə vəziyyət daha yaxşıdır.

Sonra xanım Odil Reno-Basso Azərbaycanla əməkdaşlığa toxunaraq dedi: "Ötən il biz diqqətimizi özəl sektor üzərində cəmləşdirdik, kiçik və orta sahibkarlığın dəstəklənməsi, sosial əhəmiyyətli və ətraf mühitə təsirlə bağlı yerli valyuta ifadəsində layihələrin icrası uğurla həyata keçirildi. Biz Mərkəzi Bankla SVOP (valyuta mübadiləsi) sazişi bağlamaqla yerli valyutada layihələrin maliyyələşdirilməsi sahəsində əməkdaşlığımızdan da məmnunuq. Bu da öz növbəsində kiçik və orta sahibkarlığın dəstəklənməsi baxımından vacibdir. Sevindirici haldır ki, böyük həcmdə maliyyə töhfəsi verdiyimiz Cənub Qaz Dəhlizi layihəsi başa çatdı. Biz bu layihədə yaxından iştirak edirdik və şadıq ki, həmin layihə artıq tam şəkildə icra edilib. Biz enerji sahəsində əməkdaşlığımızı yüksək qiymətləndiririk".

Avropa Yenidənqurma və İnkişaf Bankının yeni prezidenti xanım Odil Reno-Basso Azərbaycan hökuməti ilə külək və günəş enerjisi sahələrində əməkdaşlıq etdiklərini deyərək, bununla bağlı qanunvericilik bazasının qəbul edilməsinin önəminə toxundu, bu sahədə əməkdaşlığın əhəmiyyətindən danışdı.

Söhbət zamanı Azərbaycanla Avropa Yenidənqurma və İnkişaf Bankı arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə olundu, bu əməkdaşlığın daha da dərinləşdiriləcəyinə əminlik bildirildi.

Görüşdə nəqliyyat, bərpa olunan enerji, "Gəncə - Green City" layihəsi, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi", telekommunikasiya, bank sektoru və işğaldan azad edilmiş rayonlarda həyata keçirilən və icra olunacaq layihələrlə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Liderlərin görüşü gözlənilir

*“Zəngəzur dəhlizinin açılması masaya çıxarılacaq”*



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Rusiya Prezidenti Vladimir Putin arasında şəxsi görüş keçiriləcək. Dövlət başçıları ”Akkuyu” Atom Elektrik Stansiyasının üç nömrəli enerji blokunun təməlqoyma mərasimi zamanı bu barədə razılığa gəldiklərini bəyan ediblər. Görüşün yaxın zamanlarda baş tutacağı bildirilir.**

Liderlər arasında görüşün dəqiq tarixi hələ məlum deyil. Amma onların kifayət qədər ciddi məsələləri müzakirə edəcəyi məlumdur.

**Bu barədə ”Şərq”ə danışan millət vəkili, AŞPA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun fikrincə, əsas müzakirə predmetlərindən biri Qarabağ olacaq:** ”Əlbəttə, prezidentlər regionda, o cümlədən Qarabağda sülhün, sabitliyin tərəfdarıdırlar. Dialoq da, yəqin, bu istiqamətdə gedəcək. İki böyük güc fəaliyyətlərini nə qədər qarşılıqlı hörmət çərçivəsində saxlasa, bu, bizim üçün bir o qədər yaxşıdır.

Çünki türk əsgərləri və rus sülhməramlıları Qarabağdadır. Torpaqlarımızda sülh və sabitliyin təmin olunmasında türk əsgərlərinin müstəsna rolu hər birimizə məlumdur. Və eyni zamanda sülhməramlıların statuslarına uyğun fəaliyyətləri də bizim üçün çox əhəmiyyətlidir.

Məhz belə olan halda revanşist meyillərin mövcud vəziyyəti dəyişmək cəhdlərinin qarşısını almaq olar. Eyni zamanda Qarabağın gələcək perspektivi müzakirə ediləcək. Hər halda müzakirə formatı artıq dəyişib.

Əgər əvvəllər oranın taleyi, ermənilərin cəhdlərinin qarşısının alınmasına dair danışılırdısa, indi Qarabağın regionun inkişafı istiqamətindəki rolu təhlilə çəkilir.

Çünki region ölkələrinin, xüsusilə Azərbaycan və Türkiyənin biri-birinə yaxınlaşmasında, əməkdaşlığında Qarabağın böyük əhəmiyyəti var. Deməli, burada infrastuktur layihələrin həyata keçirilməsi də gündəmdə olacaq”

**S.Seyidov, həmçinin digər müzakirə mövzuları barədə də proqnozlarını verdi:** ”Sözsüz ki, Zəngəzur dəhlizinin açılması haqqında da danışılacaq. Çünki məhz bu addımın nəticəsində regionda yeni reallıq yaranacaq. Habelə, Türkiyə və Rusiya dövlət başçıları ortaq təhlükələrə qarşı birgə mübarizəyə dair fikir mübadiləsi aparacaqlar.

Həmin dövlətlərin müstəqilliyinə zidd təşəbbüslərin olduğu kimsəyə gizli deyil.

Bütün bunlarla yanaşı, ”S-400” məsələsi, ABŞ və Avropa Birliyi ilə münasibətlər də masaya çıxarılacaq”.

**Kənan Novruzov**



# “Heç bir köməyə ehtiyacım yoxdur”

Səfir: “Dahi Bülbülün Şuşadakı evini öz hesabıma bərpa edəcəyəm”

**”Təbii ki, dahi Bülbülün Şuşadakı evini öz hesabıma bərpa edəcəyəm. Bu, mənim atamın evidir”.**

APA xəbər verir ki, bunu Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu deyib.

O qeyd edib ki, bu, onun oğulluq və vətəndaşlıq borcudur. ”Bir də hamı bilir ki, bunu hörmətli Prezident İlham Əliyev televiziya vasitəsi ilə mənə tapşırıb. Təbii ki, bu, mənim üçün böyük şərəfdir. Burada heç bir sual yoxdur. Heç bir problem də yoxdur”, - deyə P. Bülbüloğlu vurğulayıb.

Səfir Bülbülün evinin bərpa layihəsinin artıq hazır olduğunu da söyləyib: ”Layihə təsdiq olunan kimi mən atamın evinin bərpasına başlayacam. Heç bir köməyə ehtiyacım yoxdur. Təbii ki, ata evimi öz vəsaitim hesabıma bərpa edəcəm”.



# Təhlükənin qapıda olduğunu unutmamalıyıq

Qaydalara əməl olunmasa bayram ərəfəsində karantin rejimi qaçılmazdır

**Novruz bayramı yaxınlaşdıqca karantın məhdudiyyətlərinin tətbiq edilib-edilməyəcəyi ən çox müzakirə edilən məsələlərdəndir. Epidemioloji vəziyyəti və son günlərin statistikasını nəzərə alsaq, bu istiqamətdə müzakirələrin intensivləşməsi anlaşılandır.**

Karantin qaydaları ilə bağlı qərar qəbul edilərkən əsas meyar kimi gündəlik yoluxmanın sayı götürülür. Bir sıra ekspertlər hesab edirlər ki, artıq 420 mindən artıq vətəndaşımız peyvənd olunub. Həm də yoluxma sayında kəskin artım yoxdur. Ona görə də ictimai iaşə və xidmət sferalarında qapanmaya getməmək mümkündür. Əlalxüsus, bayram günlərində sərt karantinin tətbiq olunması və SMS icazənin bərpası heç də məqsədəuyğun sayılmır. Digər qisim isə düşünür ki, sonrakı peşmanlıq fayda verməditi üçün əvvəlcədən sərt məhdudiyyətlər gündəmə gətirilə bilər.

**Millət vəkili Anar Məmmədov “Şərq”ə bildirib ki, ayrı-ayrı ölkələrin təcrübəsi göstərir ki, hər dəfə karantin rejimi yumşaldıldıqdan sonra yoluxma sayında artımlar müşahidə edilir.** Bunun da bir səbəbi insanlar arasında arxayınlaşmanın yaranmasıdır. Deputatın sözlərinə görə, sosial məsafənin qorunmaması, tibbi maskadan düzgün istifadə edilməməsi, gigiyenik qaydalara əməl olunmaması gündəlik statistikada artıma, bu isə öz növbəsində vəziyyətin kritik həddə çatmasına rəvac verir:

“Təəssüf ki, son günlər ölkəmizdə COVID-19-a yoluxma sayında artım müşahidə edilməyə başlayıb. Fevralın əvvəllərində gündəlik yoluxma ikirəqəmli saya keçsə də, son günlər yoluxanların sayının 500 nəfəri ötdüyünün şahidi oluruq. Yoluxma sayı yüksəldikcə, tibb sisteminin üzərinə düşən yük də artır, həkimlər xəstələrə lazımi qulluq edə bilmirlər”.

**Parlament üzvü də vurğulayıb ki, karantin rejiminin sərtləşdirilməsinin müsbət tərəfləri ilə yanaşı, problemləri də var:** ”İnsanlar həm psixoloji gərginlik keçirir, həm də bu, iqtisadiyyatın inkişafına mənfi təsir göstərir. Qarşıdan Novruz bayramı gəlir. Novruz Azərbaycan xalqının ən qədim və gözəl bayramlarındandır. Bayram günlərində birbirinin evinə qonaq getmək, birlikdə mərasimlər keçirmək xalqımızın qədim adət-ənənələrindəndir. Ancaq COVID-19 bəlasının meydanı genişləndirə bilməməsi üçün builki Novruz bayramı tədbirlərində əhalinin ehtiyatlı davranması, ayıq-sayıqlığı vacibdir. Unutmayaq ki, koronavirus bizim yaşadığımız dünyanı və ölkəni hələ tərk etməyib, həyatımızı təhdid etməkdə davam edir. Əgər bayramdan sonra sərt karantin dövrünü yaşamaq istəmiriksə, bu günlərdə tələb olunanlara riayət etməliyik. Qaydalara əməl etməsək, bayramdan sonra çox güman ki, yoluxma daha da artacaq. Bu da məhdudiyyətləri yenidən labüd edəcək. Ona görə də əvvəlcədən baş verəcəkləri anlamalı və təhlükənin qapıda olduğunu unutmamalıyıq”.

**İsmayıl Qocayev**

# Şoyqu şou göstərir

**“Qarabağda ruslarla ermənilər növbəti provokasiya hazırlayırlar”**

**Cümşüd Nuriyev:**

*“Provokasiyanın hansı bölgədə olacağını deyə bilmərəm, hər halda Xankəndinin ətrafında baş verəcək”*



**Rusiyanın Müdafiə naziri, ordu generalı Sergey Şoyqu ilə Ermənistanın Müdafiə naziri Vaqarşak Arutyunyan arasında telefon danışığı olub. TASS-ın məlumatına görə, nazirlər Dağlıq Qarabağdakı mövcud vəziyyəti, həmçinin, hərbi və hərbi-texniki əməkdaşlığı müzakirə ediblər.**

Rusiya Müdafiə Nazirliyindən bildirilib:

”Söhbət əsnasında ikitərəfli hərbi və hərbi-texniki əməkdaşlığın müxtəlif aspektlərinə, Rusiya sülhməramlılarının Dağlıq Qarabağda vəzifələrini yerinə yetirdiyi ərazilərdəki mövcud vəziyyətə və qarşılıqlı maraq doğuran digər məsələlərə toxunulub”.

**Məlum telefon danışığını ”Şərq”ə dəyərləndirən siyasi elmər namizədi, politoloq Cümşüd Nuriyev bildirib ki, Şoyqunun bu qədər fəallığı anlaşılan deyil:** ”Rusiya məkrli siyasətini həyata keçirmək üçün Ermənistanın Müdafiə Nazirliyindən bir vasitə kimi istifadə edir. Bu telefon danışığı ilə Azərbaycana mesaj verirlər. Yəni Ermənistanla bir yerdəyik. Eyni zamanda Paşinyanın da diqqətinə çatdırırlar ki, istədiyimiz vaxt səni yıxa bilərik, lakin bunu etmirik.

Hadisələrin gedişi onu göstərir ki, Qarabağda ruslarla ermənilər növbəti provokasiya hazırlayırlar. Provokasiyanın hansı bölgədə olacağını deyə bilmərəm, hər halda Xankəndinin ətrafında baş verəcək. Artıq Qarabağın əldə düzəltmə ”ombudsmanı” deyir ki, Qarabağda 120 min erməni var. Ümumiyyətlə, tarixən bölgədə heç vaxt 100 minə yaxın əhali yaşamayıb. Bu, birmənalı olaraq belədir”.

Politoloq qeyd edib ki, Rusiya yenə də xəyanətkar siyasətini həyata keçirir: ”Təəssüf ki, S.Şoyqu da bu siyasətdə bir alətdir. O, özünə aid olmayan məsələlərlə məşğuldur. Rus sülhməramlılarının Qarabağda fəaliyyəti bunu göstərir. Şoyqunun erməni müdafiə naziri ilə nələri müzakirə etdikləri məxfidir. Bəlkə də bilirlər ki, onların danışıqları yazıla bilər. Ona görə də ümumi məsələləri müzakirə ediblər”.

**C.Nuriyevin sözlərinə görə, ermənilər elə fikirləşməsinlər ki, onların arxasında rus sülhməramlıları dayanır:** ”Bir şeyi anlamırlar ki, Azərbaycanın Şuşanı azad edən, dünya praktikasında olmayan xüsusi təyinatlı qüvvələri var. Növbəti aylarda Azərbaycan antiterror əməliyyatlarını həyata keçirə bilər. Bu əməliyyatlar da uğurla nəticələnəcək.

Ermənilər başa düşməlidir ki, Azərbaycandan ötrü canını qoymağa hazır olan peşəkar hərbçilər və ağıllı Ali Baş Komandan var. Eyni zamanda yanımızda Türkiyə kimi qüdrətli dövlət və nüvə silahı olan Pakistan dayanır. Rusiya da bunları nəzərə almalıdır.

Vladimir Putin papağını qabağına qoyub fikirləşsin ki, Azərbaycan kimi dövləti düşmənə çevirmək ona lazımdır, ya yox? Şoyqunun erməni həmkarına zəng etməsi xoş olan bir gedişat deyil.

Amma nə qədər zəng etsə də, bunun bizə aidiyyəti yoxdur, daxili işləridir. Ancaq düşünməsinlər ki, bu danışıqlarla Azərbaycana qarşı təzyiq göstərə biləcəklər. Nə ölkəmiz, nə də mövcud situasiya əvvəlki kimidir. Xalqımız belə telefon danışıqlarından narahat olmalı deyil.

Çətin bir məqamda Qarabağı azad edən Ali Baş Komandan və ordumuz yenə də eyni qələbə çalmağa hazırdır. İnanıram ki, yaxın 2 ay ərzində -növbəti antiterror əməliyyatından sonra Qarabağ məsələsi gündəmdən çıxacaq”.

**Yeganə Bayramova**

# Türkiyə regionda ədalətin qarantıdır



*"Tarixi "İpək Yolu"nun bərpası türk dünyasının yenidən dirçəlməsi deməkdir"*

Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu Qırğızıstan-Türkiyə Manas Universitetində çıxışı zamanı türk respublikalarının əməkdaşlığının önəmindən bəhs edib. Çavuşoğlu vurğulayıb ki, hazırda çox əhəmiyyətli nəqliyyat layihələri həyata keçirilir:

"Türkiyə, Azərbaycan və Gürcüstan birgə layihələrdə Orta Asiya ölkələrinin iştirakını arzulayır". Nazir bəyan edib ki, bu mövzu Türkmənistan, Özbəkistan və Qırğızıstana səfərləri zamanı əsas müzakirə predmeti olub. Siyasi şərhçilərin fikrincə, Türkiyənin xarici işlər nazirinin Orta Asiyanın türk dövlətlərinə səfərləri siyasi-iqtisadi və hərbi müstəvidə əməkdaşlığın yeni mərhələsinə yol açacaq. Türkmənistandan başlayan, Özbəkistan, Qazaxısatan və Qırğızıztanla yekunlaşan səfər turu regionun siyasi-iqtisadi xəritəsinin dəyişməsinə gətirib çıxaracaq. Bu, Türkiyənin beynəlxalq müstəvidə mövqeyinin güclənməsi istiqamətində əsas addımlarından biridir. Sirr deyil ki, Azərbaycanın işğal olunmuş ərazilərini azad etməsi, Türkiyə ilə siyasi-hərbi sahədə müttəfiqliyi Ankaranın Cənubi Qafqazda strateji planda güclənməsinə və dolayı yolla Orta Asiyaya açılımına şərait yaratdı. Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan Türkiyə ilə müttəfiqlikdə maraqlıdır. Şübhə yox ki, yaxın dönəmdə Zəngəzur dəhlizinin açılması Türkiyə və Azərbaycanın Mərkəzi Asiya ilə sıx əlaqələrinin formalaşmasına güclü təkan verəcək. Ankaranın Mərkəzi Asiyada güclənməsi isə Rusiya və Çinin bu regionda təsirini zəiflədəcək.

**Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu "Şərq"ə bildirib ki, Türkiyə və Azərbaycanın Orta Asiya ölkələri ilə əməkdaşlığı sıxlaşdırması çox vacibdir.** Partiya sədrinin sözlərinə görə, əsrlərlə mövcud olmuş tarixi "İpək Yolu"nun bərpası türk dünyasının yenidən dirçəlməsi deməkdir: "İlk növbədə təbii ki, bütün türk dövlətləri, türk dünyası üçün zəruri addımdır. Amma mühüm əhəmiyyət kəsb edən iqtisadi layihələrin reallaşması, nəqliyyat dəhlizlərinin açılması həm də regionun digər ölkələri, ümumən dünya üçün müsbətdir. Zəruri olmaqla yanaşı, reallaşdırılması da mümkün olan projedir. İndiki tarixi və siyasi şərait bunu diktə edir. Türkiyə doğru mövqedədir. Əslində burada həmişə qəsdən unutdurulan tarixi bir gerçəklik də mühüm rol oynayır. Dünyada ədalət istəyən məmləkətlər, xalqlar mütləq türkün haqqını qəbul etməlidir. Çünki türklər ədalətin qarantıdır. Bunu tarixən Osmanlı imperiyası başda olmaqla bütün nəhəng türk dövlətləri əyani şəkildə sübut ediblər".

**M.Mirəlioğlu vurğulayıb ki, son yüz ildə dünyada bir az dəyişkən siyasət yeridilirdi. Qaranlıq güclər, eyni zamanda Rusiya türk dünyasının birləşməsinə bacardıqları qədər mane olurdular:** "Təsəvvür edin, Rusiyanın bütün ərazisində rus dili hakimdir, amma həmin bölgələrin əksəriyyətinin rus dili ilə heç bir əlaqəsi, yaxınlığı yoxdur. O xalqların öz ərazisi, fərqli dili, adət-ənənəsi var. Artıq yeni reallıqlar yaranıb və yeni yanaşmalar tələb olunur. Mövcud durum tədricən dəyişməkdədir. Bu da imkan verir ki, türk ölkələri bir-biri ilə daha sıx əlaqə qursun, əməkdaşlığı mümkün qədər genişləndirsinlər. Türkiyə bu sahədə ciddi mübarizə aparır. İnşallah, qardaş ölkənin türk dünyası ilə bağlı əzmli mübarizəsi qələbə ilə başa çatacaq. Perspektivi də, inandırıcılığı da çox böyükdür və gec-tez bunun şahidi olacağıq".

**İsmayıl Qocayev**

## Erməni əsilli vətəndaş qaytarıldı

### Livan Azərbaycana təşəkkür edib



**Livanın xarici işlər naziri Şarbel Vahvi bu ölkənin erməni əsilli vətəndaşı Maral Nacaryanın əsirlikdən qaytarılmasına görə Azərbaycana təşəkkür edib.**

APA-nın xəbərin görə, bu barədə Livan Milli Agentliyi məlumat yayıb.

Məlumatda bildirilir ki, Ş. Vahbi M. Nacaryanın azad edilməsində rolu olan bütün tərəflərə - Beynəlxalq Qızıl Xaç Komitəsinə, Rusiyaya, Azərbaycana və Ermənistana minnətdarlığını ifadə edib.

*Qeyd edək ki, Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib ki, Livanın Burc Hammud ərazisində anadan olan Maral Nacaryan (Maralle Najarian) həm Ermənistan, həm də Livan vətəndaşlığına malikdir: "Keçmiş münaqişə bölgəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən birgə yaşadığı erməni əsilli Livan vətəndaşı ilə birlikdə saxlanılıb. O, Azərbaycan ərazisinə qanunsuz daxil olması və Azərbaycan qanunvericiliyini pozan digər hərəkətlərə yol verməsi barədə ifadələr verib".*

*Azərbaycan tərəfinin nümayiş etdirdiyi humanizm nəticəsində Maral Nacaryan bu ilin 10 mart tarixində azad edilib. O, Ermənistana deyil, Livana qayıtmağa üstünlük verib.*

# Ordumuz daim hazırlıq vəziyyətində olmalıdır

## Təlimlər qonşu ölkələrə qüdrətimizi göstərir

Martın 15-dən 18-dək Azərbaycan Silahlı Qüvvələrinin növbəti genişmiqyaslı hərbi təlimləri keçiriləcək. Müdafiə nazirinin rəhbərliyi ilə keçiriləcək təlimə 10 min nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.

Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçiriləcək təlimlərdə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla əsas diqqət qoşunların idarəolunması, döyüşə hazırolma vəziyyətinə gətirilməsi, raket və artilleriya qoşunları, Xüsusi Təyinatlı Qüvvələr arasında döyüş uzlaşmasına yönəldiləcək. Təlimlərdə qoşunlar terrorçu dəstələr, qanunsuz silahlı qruplaşmalarla mübarizə və antiterror əməliyyatları üzrə tapşırıqları da icra edəcək. Heç şübhəsiz, genişmiqyaslı təlimlər Ermənistandan səslənən revanşist çağırışlara da ciddi mesaj olacaq. Xatırladaq ki, bu, Azərbaycan Ordusunun 44 günlük müharibədən sonra keçirdiyi ilk irimiqyaslı hərbi təlimlərdir. Görünən odur ki, şanlı Zəfərdən cəmi bir neçə ay keçməsinə baxmayaraq, Azərbaycan Ordusu döyüş qabiliyyətini daha da



*"Sülh şəraitində Silahlı Qüvvələrimizi elə həddə çatdırmalıyıq ki, bundan sonra heç kim bir qarış torpağımıza göz dikməyə cəsarət etməsin"*

gücləndirməkdə, təkmilləşdirməkdədir. Bu da Azərbaycan Ordusunun daha da gücləndirilməsi, müasir silahlarla təchizatının davam etdirilməsi barədə Ali Baş Komandanın elan etdiyi hərbi-siyasi vəzifəyə uyğundur. Məlumatda göstərildiyi kimi, təlimlərin bir hissəsi dağlıq-meşə və çətin relyefli ərazilərdə keçiriləcək. İstisna deyil ki, poliqon qismində həm də işğaldan azad edilmiş ərazilərimiz seçilib. Təlimlərdə qarşıya qoyulan vəzifələr də yeni və mühümdür. Ordumuzun müharibədən əvvəl vaxtaşırı olaraq keçirdiyi irimiqyaslı hərbi təlimlərdə qarşıya qoyulan döyüş tapşırıqları hücum əməliyyatları üzərində qurulmuşdu. İndi senari dəyişib və Ordumuzun qarşısında dayanan başlıca vəzifə bölgədə müharibənin nəticələrindən sonra yaranmış status-kvonu qoruyub saxlamaqdan ibarətdir. Ermənistanda və Qarabağda revanşist qüvvələrin olduğu bəllidir. Yaxın zamanda qanunsuz birləşmələrin dinc yolla tərksilah edilməsi baş verməzsə, onların güc yolu ilə tərksilahı qaçılmaz olacaq.

**Təlimləri "Şərq"ə dəyərləndirən ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, dövlət başçısı, Ali Baş Komandan İlham Əliyev Azərbaycan Silahlı Qüvvələrinin hazırlığına xüsusi önəm verir. Hərbi ekspertin sözlərinə görə, ordumuzun arsenalında olan demək olar ki, bütün silah-sursat müasir standartlara uyğun, ən yeni texnikalardır:** "Bu gün Azərbaycan Ordusu dünyanın aparıcı dövlətlərinin istifadə etdiyi modern hərbi vasitələrdən istifadə edir. Zabit və əsgərlər yeni texnikaları tətbiq etməyi öyrənməli, hərbi bilgilərə yiyələnməli, döyüş taktikalarını dərindən mənimsəməlidir. Hərbi təlimlər real döyüşlər qədər əhəmiyyətlidir. Çünki ordu təlimlərlə güclənir, təkmilləşir və peşəkarlaşır. Xüsusən, hərbi təlimlərin dağlıq və meşəlik relyefdə keçirilməsi olduqca önəmlidir. Regiondakı durum hamıya bəllidir. Hər an Qarabağın məlum bölgəsində erməni təxribatı, terrorçu qrupların qanunsuz fəaliyyəti ilə rastlaşa bilərik. Ona görə də silahlı qüvvələrimiz daim hazırlıqlı vəziyyətdə olmalı, ayıq-sayıqlıqlarını itirməməlidir. Torpaqlarımızı işğaldan azad etdikdən sonra qarşımızda duran ən böyük vəzifə ərazilərimizi düşməndən qorumaq və istənilən təcavüz cəhdinə ən sərt şəkildə cavab verməkdir".

**C.Xəlilov hesab edir ki, təlimlər ordunun döyüş gücünün artırılması ilə yanaşı, zabit və əsgər heyətinin psixoloji-mənəvi durumunun, savaş ruhunun yüksəldilməsinə də xidmət edir:** "Hərbçilər çətin döyüş tapşırıqlarını icra etməklə mübarizə ruhları daha da artır. Ən əsası isə düşmənlərimiz və onların havadarları Azərbaycan Ordusunun gücünü hər zaman hiss edirlər. Təlimlər qonşu ölkələrə hərbi qüdrətimizi unutdurmayacaq. Sülh şəraitində Silahlı Qüvvələrimizi elə həddə çatdırmalıyıq ki, bundan sonra heç kim bir qarış torpağımıza göz dikməyə cəsarət etməsin".

**İsmayıl Qocayev**

# Gələn qonağa "yox" deməzlər

Əgər ATƏT-in rəhbərliyi, həmsədrlər Qarabağda daşın üstünə daş qoymağa gəlirlərsə, buyursunlar

ATƏT-in fəaliyyətdə olan sədri, İsveçin Xarici işlər naziri Ann Linde Azərbaycan və Ermənistana səfər etmək niyyətindədir. Bu barədə xanım Linde özünün "Twitter" səhifəsində yazıb. Linde Minsk qrupunun həmsədrləri və Anjey Kasprşiklə Azərbaycan və Ermənistana gözlənilən səfəri ilə bağlı görüş də keçirib. Vəziyyət elədir ki, artıq Azərbaycan ictimaiyyəti ümumiyyətlə Minsk qrupu, həmsədr sözünü eşitmək belə istəmir.



Haqlı olaraq qurumun və vasitəçilərin fəaliyyəti tənqid olunur. Həmsədrlərin 30 ilə yaxın müddətdə müsbət nəticəyə nail olmaması onların nə qədər əhəmiyyətsiz olduqlarını təsdiqləmək üçün kifayət edir. Həm də ortada münaqişə-filan yoxdur. Azərbaycan öz hərbi-siyasi imkanları ilə torpaqlarımızı işğaldan azad edərək bölgədə yeni reallıqlar formalaşdırdı. Hər şeyə rəğmən, bəzi ekspertlər hesab edirlər ki, Qarabağdakı humanitar proseslərdə və quruculuq işlərində müəyyən qədər ATƏT-ə yer vermək, onların da iştirakına imkan yaratmaq lazımdır. Onların fikrincə, əsasən Qərb ölkələrindən ibarət bir strukturun regiondakı proseslərə cəlb olunması Rusiya faktorunun neytrallaşmasına xidmət etmiş olar.

**Gözlənilən səfəri "Şərq"ə dəyərləndirən siyasi şərhçi Fuad Heydər vurğulayıb ki, ATƏT-in Minsk qrupunun uzunmüddətli fəaliyyətinin rəsmi Bakı üçün zərrə xeyri olmayıb. Analitikin sözlərinə görə, münaqişənin həlli ilə bağlı vasitəçilik missiyasını öz üzərinə götürmüş vasitəçilər 28 il ərzində heç nə ilə yadda qalmadı:** "Həmsədrlərin vaxtaşırı regiona mənasız səfərlərinin heç bir səmərəsi olmadı. Onlar hər zaman işğalçı Ermənistanın təcavüzkar siyasətinə, onun beynəlxalq hüququ kobud surətdə pozmasına, hərbi cinayətlərinə göz yumdular. Prezident İlham Əliyev də həmsədrlərlə görüşündə bu reallığı qarşı tərəfin diqqətinə çatdırdı. Ötən bir il ərzində bölgədə vəziyyət tamamilə dəyişib. "Dağlıq Qarabağ münaqişəsi"nin mövcud olmaması regionda fərqli mühit formalaşdırıb. Halbuki, həmsədr ölkələrin liderləri münaqişənin hərbi həllinin olmadığını iddia edirdilər. Lakin Azərbaycan problemi hərbi-siyasi üsullarla 44 gündə həll etdi. Həmsədrlərin böyük həssaslıqla qoruduqları status-kvo Azərbaycan hökumətinin iradəsi, xalqın əzmi, həmrəyliyi, bütün qüvvələrin səfərbər olması sayəsində dəyişdirildi. ATƏT-in, yaxud Minsk qrupunun siyasi yöndə edə biləcəyi bir iş qalmayıb. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanan üçtərəfli anlaşmalarda əks olunmuş müddəalar qardaş Türkiyənin də iştirakı ilə ardıcıl reallaşdırılır".

*F.Heydər bəyan edib ki, bundan sonrakı proseslərin əsas istiqaməti iqtisadi layihələrin, nəqliyyat dəhlizlərinin, kommunikasiyaların qurulması yönündədir:* "Əgər ATƏT-in və ya həmsədrlərin bununla bağlı çalışmaq niyyətləri, təklifləri varsa, buyurub gəlsinlər. Onsuz da vasitəçilərin bölgəyə bütün səfərləri onların öz təşəbbüsləri ilə baş tutur. Heç kim onları Azərbaycana dəvət etmir. Amma gəlmək istəyən qonağa da "yox" deməzlər. İmkan yaradaq, Qarabağdakı humanitar məsələlərə, quruculuq işlərinə öz töhfəsini versinlər. Bölgənin dirçəldilməsində iştirak etsinlər".

**İsmayıl Qocayev**



## Qadağaları heç kim istəmir, amma...

### 10-a yaxın məktəb və bağçaların bağlanması siqnaldır

**Bir müddətdir ki, məktəblər əyani təhsil formasına keçid edib. Lakin son günlər orta təhsil müəssisələrindən xoş xəbərlər eşitmirik.**

Elə mart ayının 10-da paytaxtda iki məktəb koronavirusa görə bağlanıb. Bakı Şəhəri üzrə Təhsil İdarəsindən (BŞTİ) verilən məlumata görə, 274 no?mrəli tam orta məktəbdə çalışan dörd nəfər müəllimin COVID-19 infeksiyasına yoluxmaları təsdiq olunub. Bakı şəhər 320 nömrəli tam orta məktəb də eyni səbəbdən fəaliyyətini dayandırıb. Bunlarla yanaşı, Şəki şəhərində də iki məktəb koronavirusa görə distant təhsilə keçib.

Bakı şəhəri Əhməd Bakıxanov adına 6 nömrəli Uşaq Musiqi məktəbində də dərslərin distant formada keçirilməsi qərara alınıb.

**Həkim-allerqoloq Şahvələd Məmmədov "Şərq"ə mövzu ilə bağlı bunları söyləyib:** "Məktəblərin açılması ürəkaçan oldu. Təhsil də lazımdır, aylarla bağlı qala bilməzdi. Hamımız istərdik ki, qapanmalar uzun müddət davam etməsin, xüsusilə də təhsil sahəsində qadağalar çox qalmasın. Amma məktəblər də kütləvi toplantı yerləridir. Son bir ayda yoluxanların sayı artıb. Ona görə əlavə tədbirlər görülməlidir. 10-a yaxın məktəb və bağçanın bağlanması bir siqnaldır. Qarşısını almaq üçün tədbirlər həyata keçiriləcək".

**Samirə Ərəblinski**

# Rusiya ciddi narahatlıq içindədir

## Kreml Ermənistan ordusunun dağılması ilə barışa bilmir

Rusiya Müdafiə naziri Sergey Şoyqu ilə Ermənistan Müdafiə naziri Vaqarşaq Arutyunyan arasında telefon danışığı olub. Sergey Şoyqu ilə erməni həmkarı arasındakı dialoqun kifayət qədər sərt keçdiyi deyilir. Erməni mediasının yazdığına görə, Şoyqu Arutyunyanı danlayıb və Ermənistan silahlı qüvvələri ətrafında gedən situasiyanı diqqətlə izlədiklərini Arutyunyanın diqqətinə çatdırıb.





"Məqsəd öz köləsini real ölümdən xilas etmək və erməni ordusunu yenidən dirçəltməkdir"

Rusiya müdafiə naziri Ermənistan ordusunun dağılmasına yol verməyəcəklərini vurğulayıb. Onun sözlərinə görə, Baş nazir Nikol Paşinyanın silahlı qüvvələrə qəsdi əslində Qərbin sifarişidir. Ermənistan müdafiə naziri rusiyalı həmkarını sakitləşdirməyə çalışaraq problemin orduda deyil, konkret olaraq Baş Qərargah rəisi Onik Qasparyan və onun ölkə rəhbərliyinə qarşı çıxışını dəstəkləyən hərbçilərdə olduğunu söyləyib. Sergey Şoyqu isə onunla razılaşmadığını bildirərək, Ermənistan ordusunun Rusiyanın bölgədəki maraqlarında böyük strateji əhəmiyyət daşıdığını vurğulayıb.

**AĞ Partiya sədri Tural Abbaslı "Şərq"ə açıqlamasında vurğulayıb ki, Rusiyanın Ermənistanın güclü qalmasında maraqlı olduğu hər kəsə bəllidir. Partiya rəhbərinin sözlərinə görə, bunun səbəbi Moskvanın ermənləri çox istəməsi, yaxud özlərinə yaxın müttəfiq sayması deyil:** "Rusiya Ermənistana sadiq köləsi kimi baxır və regiondakı bir çox işləri öz köləsi vasitəsi ilə reallaşdırır. Cənubi Qafqazı birbaşa Kremlin nəzarətində saxlayan ən mühüm amil vassal Ermənistandır. Rusiya uzun illər bu siyasətini Qarabağ münaqişəsi üzərindən yürüdürdü. Ona görə də erməni ordusunun zəifləndilməsinə imkan vermir və daim silahlandırırdı. Çünki status-kvonun Azərbaycanın xeyrinə həll olunmasını istəmirdi. Aydındır ki, Moskva münaqişənin həllində maraqlı və səmimi olsaydı, Ermənistanı silahlandırmaz və qısa zamanda problemi çözərdi. Hətta Rusiya bu işə qarışmasa belə, siyasi-iqtisadi və hərbi baxımdan dəfərlərlə Ermənistandan güclü olan Azərbaycan öz gücü ilə düşməni sülhə məcbur edərdi. Kreml isə tərəflər arasında balansı təmin etməyə çalışdı. Lakin dövlətimiz böyük risk alaraq ötən il Vətən müharibəsinə başladı və 44 günlük qısa vaxtda Ermənistan ordusunu darmadağın etdi. Bundan sonra Rusiyanın regiondakı mövqeyi və xüsusən rəsmi Bakıya təsir imkanları zəiflədi. Düzdür, son anda müəyyən təxribatlarla öz "sülhməramlı" qüvvələrini Qarabağa yerləşdirməyə nail oldular. Amma orda da müddət və fəaliyyət istiqamətləri bəllidir. Yəni Rusiyanın manevr imkanları demək olar ki, yoxdur".

**T.Abbaslıya görə, Moskva Cənubi Qafqazdan tam uzaqlaşmamaq üçün Ermənistanın varlığını davam etdirməsində maraqlıdır:** "Kreml "Yerevanda baş verənlər ölkənin daxili işidir" desə də, Ermənistanda yaşananları diqqətlə izləyir, hətta proseslərə müdaxilə edir. Məqsəd öz köləsini real ölümdən xilas etmək və erməni ordusunu yenidən dirçəltməkdir. Son günlər Ermənistanın siyasi qüvvələri ilə hərbi dairələri arasındakı qarşıdurma Moskvanı ciddi narahat edir. Kreml rəsmiləri Yerevana zəng edərək açıq kontekstdə hökuməti danlayır və "yol göstərirlər". Birbaşa bəyan edirlər ki, Kreml Ermənistan ordusunun dağılmasına imkan verməyəcək. Əsas qayə Rusiyanın regionda qalmasını təmin etməkdir. Ermənistanın güclənməsinin qarşısını almalı, ordunun formalaşmasının önünü kəsməliyik. Çünki düşmənin silahlı qüvvələrinin yeganə missiyası işğalçılıq və qonşulara təcavüz etməkdir. Rusiyanı əvvəlcə Ermənistandan, sonra Cənubi Qafqazdan çıxartmalıyıq. Əks təqdirdə Ermənistan regionun qara yarası və təhdid ocağı kimi qalmaqda davam edəcək".

**İsmayıl Qocayev**

# Türkiyənin xarici siyasətində Qarabağ prioritetə çevrilib

## Ankaranın intensiv siyasəti Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasına gətirib çıxaracaq



**Türkiyə Xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla görüşüb. Bu barədə türkiyəli nazir özünün "Twitter" hesabında məlumat yayıb. Qətərin paytaxtı Dohada keçirilən görüş yarım saata yaxın davam edib.**

Türkiyə XİN rəhbəri Suriya məsələsinə aid sabah təşkil olunacaq Türkiyə-Rusiya-Qətər üçtərəfli toplantısının detallarını müzakirə etdiklərini bildirib. Görüşdə həmçinin Qarabağ məsələsi ətrafında da fikir mübadiləsi aparılıb.

**Qarabağın yenidən diplomatik müstəvidə müzakirə edilməsini "Şərq"ə şərh edən politoloq Həsrət Rüstəmov bildirib ki, xüsusilə son bir il ərzində Türkiyənin xarici siyasətində Qarabağ önəmli yer tutur:** "Deməkolar ki, regiona aid olan bütün görüşlərdə Türkiyə rəsmiləri Qarabağ məsələsini prioritet olaraq diqqətdə saxlayır. Ona görə də Lavrovla Çavuşoğlunun görüşü bizim üçün mühüm və əhəmiyyətlidir. Hesab edirəm ki, Türkiyənin intensiv siyasəti Azərbaycanın ərazi bütövlüyünün tam bərpa olunmasına gətirib çıxaracaq. Əsas narahatlıq hələ də Qarabağın bir hissəsinin Rusiya nəzarəti altında qalması və orada Azərbaycan suverenliyinin bərpa olunmaması ilə bağlıdır. Çox güman ki, danışıqlar zamanı Qarabağa aid məhz bu məsələlər müzakirə olunub".

**H.Rüstəmov artıq Türkiyənin regionun əsas güclərindən biri kimi çıxış etdiyini də diqqətə çatdırıb:** "Bu da bizim üçün çox önəmlidir. Türkiyə və Rusiya təkcə Qafqazda deyil, yaxın Şərqdə - Liviya və Suriyada xarici siyasətlərini razılaşdıraraq həyata keçirirlər. Gələcəkdə Qarabağ məsələsində Türkiyə-Rusiya anlaşması Yaxın Şərq və region daxil olmaqla daha geniş arealda ağlabatan həll yollarına nail olacaq. Bu baxımdan belə görüşləri mühüm hesab edirəm. Fikrimcə, Türkiyə rəsmilərinin səylərinə görə Azərbaycan xalqı olaraq onlara minnətdar olmalıyıq".

**Yeganə Bayramova**



# "Bir çox insan narazıdır"

## Aqil Abbas: "Evi dağılmış adama 1000 manat pul verirlər"

**Ermənistanın Azərbaycana vurduğu ziyanın qiymətləndirilməsi üzrə baş nazir Əli Əsədovun sədrliyi ilə 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikasının silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılmasını təmin etmək məqsədilə yaradılmış Dövlət Komissiyasının növbəti iclası keçirilib.**

İclasda Komissiyanın üzvləri və təcavüzə məruz qalmış şəhər və rayonların icra hakimiyyəti başçıları, digər rəhbər şəxslər iştirak ediblər.

**Millət vəkili, "Ədalət" qəzetinin təsisçisi Aqil Abbas iclas barədə "Şərq"ə öz fikirlərini bildirib:** "Bu çox vacib bir məsələdir. Komissiyanın işindən bir çox insan narazıdır. Çünki müharibədən ziyan görmüş ərazilərdə zərərçəkənlərə lazım olduğu qədər diqqət yetirilmir. Evi dağılmış adama 1000 manat pul verirlər. Həmin məbləğə isə heç nəyi bərpa etmək mümkün olmur. Bu iclasda icra başçılarına mövcud vəziyyət izah olundu. Görüşün nəticələrini isə gələcək zamanda görmək olacaq".

**Aytac Ali**




# Türkiyə XİN-dən etiraz

## "Erməni terrorçunun azad edilməsini şiddətlə qınayırıq"

**"Los Angeles Ali Məhkəməsinin şəhid Baş konsulumuz Kemal Arıkanı qətlə yetirən erməni terrorçu Hampiq Sasunyanın azad edilməsini şiddətlə qınayırıq".**

"Report"un yerli bürosu xəbər verir ki, bu barədə Türkiyə xarici işlər nazirliyinin yaydığı açıqlamada qeyd olunub.

"Kaliforniya qubernatoru Qavin Nyusomun bu qərardan apellyasiya şikayəti verməməsini isə hüquq çərçivəsindən kənar hərəkət kimi qiymətləndiririk"-deyə, məlumatda bildirilib.

Xatırladaq ki, Türkiyə Respublikasının ABŞ-ın Los Angeles şəhərindəki Baş konsulu Kemal Arıkan erməni terrorçular Hampiq Sasunyan və Krikor Saliba tərəfindən 28 yanvar 1982-ci ildə qətlə yetirilib.

Saxlanılan H.Sasunyan ömürlük həbs cəzasına məhkum edilib, istintaqdan yayına bilən K.Saliba isə həmin ildə Livandakı vətəndaş müharibəsində öldürüldüyü iddia edilib.

# "Rusdilli məktəblər millətin gələcəyinə basdırılan minalardır"

## Sabir Rüstəmxanlı: "Məmur öz dilini sevmir, övladını doğma dilimizdə olan məktəbə qoymur, dilimizə yuxarıdan aşağı baxır"

*Tanınmış tənqidçi İradə Musayeva tanınmış ədəbiyyatşünas, professor Vaqif Sultanlının ölkəmizdəki rus məktəblərinin fəaliyyəti barədə fikirlərini paylaşıb. Mətndə təhsil sistemimizdə böyük problem olaraq qalan rus məktəblərinin fəaliyyəti barədə açıq mesajlar var: "Azərbaycandakı rus məktəbləri Qarabağa doluşmuş Rusiya "sülhməramlıları"ndan daha təhlükəlidir. Həndəsi silsilə ilə çoxalan bu məktəblər millətin gələcəyinə basdırılmış minalardır".*

Ölkəmizdə rus dilinə maraq hər zaman fikir ayrılığına səbəb olub. Cəmiyyətimizdə rus dili sevdasını bu dildə təhsil alanların fərqli və geniş dünyagörüşə sahiblənməsi ilə əlaqələndirirlər. Təsadüfi deyil ki, bəzi valideynlər özləri rus dilində bilməsələr də, övladlarını bu dildə təhsilə cəlb edirlər. Bir növ övladlarının daha savadlı və universal olacaqlarını düşünürlər.

Maraqlıdır, rus dilinə olan maraq cəmiyyətimizi hansı təhlükəli tendensiya ilə üz-üzə qoyur?

**Mövcud durumla bağlı "Şərq"ə danışan Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) sədri, millət vəkili Sabir Rüstəmxanlı da bildirib ki, hər zaman rus dilinin ölkəmizdə geniş təbliğinə sərt münasibət bildirdiyi üçün fərqli təpkilərlə qarşılaşıb:** "Əhalinin müəyyən təbəqəsi, xüsusilə də rusdilli şəxslər bunu belə yozurlar ki, guya, rus dilini öyrənməyin əleyhinəyik. Lakin heç də belə deyil, çox dil bilməyin ziyanı yoxdur. Rus dilinin böyük ədəbiyyatı və geniş imkanları var. Amma o demək deyil ki, uşaqlarımızı bu dildə oxutmalıyıq. Uşaq anadan olandan sonra öz doğma dilində öyrənməsə, o, yarımçıq olur. Vaxtilə Cəlil Məmmədquluzadə də rus dilində bilib, Üzeyir Hacıbəyli Qori Seminariyasında rus dilində təhsil alıb. Amma o zaman vəziyyət tamamilə fərqli idi. Mirzə Cəlil rus dilini öyrənərkən Azərbaycan mühitindən kənara çıxmamışdı. Lakin vətəndaşlarımız indi öz evlərində rusdilli mühit yaradırlar. Məmurlarımızın övladları və yaxud nəvələrinin dayəsi Azərbaycan dilində danışmır. Bu, dövlətimizə böyük hörmətsizlikdir. Məmur öz dilini sevmir, övladını doğma dilimizdə olan məktəbə qoymur, dilimizə yuxarıdan aşağı baxır. SSRİ dağılandan sonra o respublikaların hamısında rus məktəbləri ləğv olunub. Ukrayna, Ermənistan və Gürcüstanda belə məktəblər yoxdur. Ölkəmizdə olan ruslar üçün təbii ki, bu dildə məktəblər açıla bilər. Amma hansı sinfə gedirsənsə, orada 30 nəfər uşaqdan 27-28 nəfəri azərbaycanlıdır, yerdə qalanları qeyri-millətdir. Lakin təhsil rusdillidir. Özü də buna haqq qazandırırlar. Çox qəribə bir tendensiya var. SSRİ-dən qopduq ki, dilimiz, iqtisadiyyatımız,



məktəbimiz azad olsun".

**S.Rüstəmxanlı vurğulayıb ki, ildən-ilə rusdilli məktəbləri artırıb, bununla fəxr edirlər:** "Həqiqətən də rusdilli məktəblər millətin gələcəyinə basdırılmış minalardır. Çünki rus dilində tərbiyə alan adamlar özlərini Rusiyanın bir parçası hesab edirlər. Onlar rus ədəbiyyatı, tarixi və mədəniyyətini Azərbaycandan daha yaxşı öyrənirlər. Rus dilini geniş təbliğ etməkdə iki məqsəd var: Ya valideynlər övladlarına bu dildə təhsil verirlər ki, onları Moskva üçün hazırlasınlar, çünki çıxıb ora gedəcəklər. Ya da Moskvanı bura qaytarmağı planlaşdırırlar. Rus dilinin kəskin təbliğinə anormal hal kimi baxıram. Dövlət məmurlarının isə övladlarını ana dilində oxutmaması cinayətdir".

**Yeganə Bayramova**

# “Paşinyan ziyanın öhdəliyini üzərinə götürüb”

**Namiq Əliyev:** “Əgər düşmən həmin maddi təzminatı ödəmək iqtidarında deyilsə, onda Zəngəzuru qaytarmalıdır”



**Sonuncu Qarabağ müharibəsinin xeyli vaxtdır bitməsinə rəğmən, diplomatik müstəvidəki ”manevrlər” davam edir. Ermənistanda müxalif qüvvələrin ”yağışdan sonrakı göbələk” kimi baş qaldırması hərbi əməliyyatların bərpa olunacağını istisna etmir. Azərbaycan isə heç bir halda yeni qanların tökülməsinin tərəfdarı deyil. Hətta ”Dəmir yumruğ”umuzun daim havada olmasını hökumət səviyyəsində dəfələrlə elan etsək, belə. Maraqlı məqam ondan ibarətdir ki, düşmən əvvəlki cinayətlərinin cəzasını ödəmək barədə düşünmür. Görünür, vicdanları, ürəkləri ədalətdən məhrum olan xunta rejiminin rəhbərliyinin heç ilahi ədalətdən də xəbəri yoxdur. Ona görə onlara öz məsuliyyətlərini və öhdəliklərini xatırlatmaq məqsədilə Azərbaycanın fövqəladə və səlahiyyətli səfiri, hüquq elmləri doktoru, professor Namiq Əliyevlə söhbətləşdik:**

**- Azərbaycanın tarixi qələbəsini necə qiymətləndirirsiniz?**

- Prezident İlham Əliyev televiziya kanallarına verdiyi müsahibələrin birində şanlı qələbəmizin bölgə və bütün dünya üçün böyük əhəmiyyət daşıdığını söyləmişdi. Bizim çəkdiyimiz əziyyətləri, məruz qaldığımız haqsızlıqları bütün dünya yaxşı bilir. ”Ermənistanın Azərbaycan ərazilərini işğalı faktoru təkcə Azərbaycanda gərginlik yaratmırdı. Analoji vəziyyət Gürcüstanda da proqnozlaşdırılırdı”- Bu fikirlə razılaşmamaq olmur. Həqiqətən, Azərbaycan ərazisindəki ilk Qarabağ müharibəsindəki ”uğurdan” ”ilham alan” ermənilər Gürcüstana qarşı ərazi iddiaları qaldırdılar. 1992-93-cü illərdə Abxaziyada gürcülərin ən qanlı etnik təmizlənməsini məhz ermənilər həyata keçirdi. Nəticədə minlərlə mülki vətəndaş öldürüldü, yüz minlərləsi qaçqın düşdü. Onların çoxu hələ də evlərinə qayıda, atalarının məzarlarını ziyarət edə bilmirlər. Fikrimcə, Ermənistanın qonşularına qarşı təcavüzkar siyasəti, əbədi ərazi iddiaları, nasizmə çevrilən erməni millətçiliyi region ölkələri üçün ciddi problemdir. Nəhayət, biz BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamənin tələblərini yerinə yetirdik. Nəticədə haqq-ədalət qismən də olsa bərpa edildi.

**- Ermənilər ”B variant” kimi Qarabağa muxtariyyət verilməsi iddiasına düşüblər. Bu barədə nə düşünürsünüz?**

- Təxminən 30 illik sülh danışıqları dövründə Azərbaycan Respublikası ”Madrid prinsipləri”nə razılaşdı və onların tətbiq olunmasını ardıcıl olaraq müdafiə edirdi. Lakin erməni tərəfi əvvəlcə həmin sənədə məhəl qoymadı. Sonra tamamilə imtina etdi. İndi Ermənistan da bu prinsiplərin onlara bəxş etdiyi imkanları itirdi. Qarabağda hansısa statusdan və muxtariyyətdən söhbət gedə bilməz. Muxtariyyət işğalçı qoşunlarının geri çəkilməsi müqabilində Azərbaycanın verdiyi güzəşt idi. Düşmənlərin müqavimətinə baxmayaraq, əraziləri hərbi yolla işğaldan azad etmişiksə, hansı güzəştdən və muxtariyyətdən danışmaq olar?!

**- Bəs, vətəndaşlıq məsələsi necə həll edilməlidir?**

- Qarabağ bölgəsinin rayonları dövlətimizin inzibati ərazi vahidləridir. Azərbaycan vətəndaşlığını qəbul edən ermənilər Qarabağda qala bilərlər. Biz onların təhlükəsizliyinə təminat veririk. Azərbaycan Respublikasının Konstitusiyasına əsasən, digər milli azlıqlar kimi, ermənilər də bizimlə bərabər hüquqlara sahib ola bilərlər. Çünki dövlət başçısının dediyi kimi, biz erməni xalqı ilə yox, Ermənsitandakı xunta rejimi ilə müharibə aparırıq. Bu gün - işğal sona çatdıqda Qarabağ ermənilərinin vahid, normal, sabit və firavan bir ölkədə yaşamaq imkanları yarandı. İndiyədək isə belə şansları yox idi. Onu da deyim ki, Azərbaycan qanunvericiliyinə görə, ölkə ərazisində ikili vətəndaşlıq tanınmır. Yəni Qarabağda yaşamaq istəyən ermənilər mütləq öz digər vətəndaşlıqlarından çıxmalıdırlar. Əks halda torpaqlarımızda yaşamaq imkanları olmayacaq. Bu təcrübə etnik azlıqların öz daimi yaşayış yerlərini, yurisdiksiyasına mənsub olduqları ölkəni sərbəst seçmələrinə imkan verir. Sözügedən yanaşma eyni zamanda millətlərarası münasibətlər sahəsindəki həddi aşmamağa, dövlətlərin suverenliyini gücləndirməyə və qonşu dövlətlərin daxili işlərinə müdaxilə imkanlarını məhdudlaşdırmağa imkan verəcək.

**- Gündəmdə olan məsələlərdən biri də Zəngəzurun döyüşsüz Azərbaycana qaytarılmasıdır. Bu məsələ nə qədər realdır?**

- Birinci Qarabağ müharibəsi və sonrakı dövrdə ərazilərimizin işğalı da daxil olmaqla Ermənistan-Azərbaycan münaqişəsinin 32 ili ərzində ölkəmizə böyük maddi ziyan dəyib. Həmin ziyanın qiyməti on milyardlarla ABŞ dollarıdır. Əlbəttə, məsuliyyəti işğalçı daşıyır. Bu məsələlər beynəlxalq hüquqla tənzimlənir. İkinci bir tərəfdən noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın şərtlərinə uyğun olaraq Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycana dəymiş ziyana görə öhdəliyi öz üzərinə götürdü. Əgər düşmən həmin maddi təzminatı ödəmək iqtidarında deyilsə, onda əvvəlki vaxtlarda işğal etdiyi torpaqları, o cümlədən Zəngəzuru qaytarmalıdır. Ermənilərin törətdikləri cinayətləri, eləcə də, mülki əhalinin hədəf alınması, tarixi-memarlıq abidələrinin dağıdılması II Dünya müharibəsində almanların etdiklərini xatırladır.

**- Ermənilərin dinc əhalimizi hədəf almasının adekvat cavabı necə olmalıdır?**

**“Xəritələr verilməyənədək hansısa məsələ ermənilərin xeyrinə həll edilə bilməz”**

- Ermənilərin Gəncəni vurması təsadüfi deyildi. Onlar Azərbaycandan müvafiq cavab alacaqları təqdirdə KTMT-dən kömək istəmək niyyətində idilər. Amma bir məsələni unutmuşdular: KTMT yalnız özünümüdafiəyə şərait yaradır. O, heç bir ölkənin işğal siyasətini dəstəkləmir. Bu, qurumun ruhuna ziddir. Ermənistan 1990-cı ildə Cenevre Konvensiyasına qoşulsa da, hərbi cinayətlər törətməklə onun və beynəlxalq humanitar hüququn tələblərini dəfələrlə pozub. BMT, ATƏT və digər beynəlxalq təşkilatlar işğalçını sərt şəkildə qınamalı, sanksiyalar tətbiq etməlidir.

**- Bilirsiniz ki, müharibənin bitməsinə rəğmən, hələ də şəhidlər veririk. Bu isə namərd ermənilərin ərazini minalaması ilə əlaqədardır. Problemi necə həll etməliyik?**

- Torpaqların minalardan təmizlənməsi bu gün ən aktual məsələlərdəndir. Həmin ərazilərin xəritəsinin rəsmi Bakıya verilməməsi ermənilərin hələ də müharibə istədiklərinin göstəricisidir. Bəlkə də məğlubiyyətin ”dadı damaqlarında qalıb”. İndiki situasiyada onlar bizim vətəndaşlarımızı öldürmək üçün hər şey edirlər. Deməli, düşmənə hansısa güzəşt olmamalıdır. Xəritələr verilməyənədək hansısa məsələ ermənilərin xeyrinə həll edilə bilməz. Əslində bu məsələ təkcə Azərbaycan daxilində yox, beynəlxalq aləmdə gündəm mövzusuna çevrilməlidir. ATƏT-in Minsk qrupu, həqiqətən, sülh və sabitlik istəyirsə, xəritələrin verilməsi üçün ermənilərə təzyiq etməli və bununla da öz xoş niyyətini göstərməlidir. Mövcud vəziyyət erməni faşizminin növbəti təzahürüdür. Nəzərinizə çatdırım ki, beynəlxalq sənədlərə əsasən belə silahlardan istifadə həm də müharibə cinayəti hesab olunur. Ermənistan qanunvericiliyinin Cinayət Məcəlləsinin ”Sülh və bəşəriyyətin təhlükəsizliyinə qarşı cinayətlər” fəslində qadağan edilmiş döyüş vasitələrindən və silahlardan istifadə ilə bağlı xüsusi maddə var. Deməli, ermənilər anti-türk siyasətləri ilə həm də öz qanunlarına zidd davranırlar. Onların cinayət əməlləri cəzasız qalmamalıdır. Erməni xalqının faşizmin onların milli ideologiyası olmadığını sübut etməkdən ötrü hələ şansları var. Nə qədər ki, gec deyil, bu şansdan yararlanmalıdırlar. Ümumiyyətlə, rəsmi İrəvan Cənubi Qafqazda törətdiklərinə görə tezliklə cavab verəcək. Ermənilərə, eləcə də onların rəsmi şəxslərinə ölkələrinin sərhədlərinin olduğunu başa salmaq çox çətindir. Çünki uşaqlıqdan ”Böyük Ermənistan” ideologiyası ilə tərbiyə olunublar. Onlara ”Hayastanın sərhədlərinin olmadığı” deyilib. Elə bilirlər ki, təkcə İrəvan deyil, Bakı, Kiyev, Moskva, Lvov... da onların paytaxtlarıdır. Əslində isə doğrudan da, Ermənistanın sərhədləri yoxdur. Çünki ”Ermənistan” adlı dövlət mövcud deyil. Ermənistanın Xarici işlər naziri Ara Ayvazyanın bir müddət əvvəl Qarabağa səfəri birbaşa revanşistlərin diktəsi idi. Onlar hələ də əraziyə nəzarət etdiklərini göstərmək və eyni zamanda bəyanatın şərtlərini pozmaq istəyirdilər. Rəsmi Bakı bu təxribatlara qarşı kəskin reaksiya göstərməyəcəyi təqdirdə, qanunsuz ”səfərlər” təkrarlanacaq. Ermənistan rəsmilərinin hansınısa ”person non qrata” elan etmək digərlərinə də dərs olacaq.

**- Ümumiyyətlə, rəsmi İrəvanın hazırkı ritorikasını necə dəyərləndirirsiniz?**

- Ermənistanda olan bəzi qüvvələr ölkənin xarici siyasətini dəyişərək Rusiyanın təsir dairəsindən çıxmağa çalışır. Və Azərbaycanın döyüş getməyən bölgələrinə Rusiya istehsallı raketlər ataraq, Rusiya mətbuatında təxribat xarakterli məlumatlar yayaraq bu ölkə ilə münasibətlərimizi korlamaq istəyir. Lakin bunu bacarmayacaq.

**Kənan Novruzov**

## Bəxtiyar İslamov sədr seçilib

YAP Gənclər Birliyinin sədr müavinləri də məlum olub



**Dünən Yeni Azərbaycan Partiyası (YAP) Gənclər Birliyinin iclası keçirilib.**

YAP mətbuat xidmətindən APA-ya verilən məlumata görə, YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov qeyd edib ki, partiyanın yeni Nizamnaməsinə əsasən, YAP Gənclər Birliyinin sədri və müavinləri partiya sədrinin təqdimatı əsasında İdarə Heyəti tərəfindən təsdiq edilir.

Artıq bu barədə müvafiq qərar qəbul olunub. Bəxtiyar İslamov YAP Gənclər Birliyinin sədri, Sevinc Saleh qızı Qasımova və Fəsli Nəbi oğlu Nəbiyev sədrin müavini təyin olunublar. Eyni zamanda 30 nəfər YAP Gənclər Birliyinin üzvü seçilib.

## 1,9 trilyonluq qanun hazırdır

Bayden “Amerika qurtuluş planı”nı imzaladı



**ABŞ prezidenti Co Bayden ümumi məbləği 1,9 trilyon ABŞ dolları olan qanun layihəsini imzalayıb. ”Amerika qurtuluş planı” adlanan sənədin imzalanma mərasimi ölkənin xəbər kanalları tərəfindən Ağ Evdən yayımlanıb.**

Qeyd edək ki, layihədə göstərilən məbləğin təqribən 400 milyard ABŞ dollarını koronavirusa qarşı mübarizəyə və əhalinin peyvəndlənməsi kampaniyasına sərf etmək nəzərdə tutulur. Hakimiyyət daha 1 trilyon ABŞ dolları əhalinin dəstəklənməsinə yönəltmək niyyətindədir. Digər məbləğ pandemiyada zərər çəkən müəssisələr arasında bölüşdürüləcək. Qanun əsasən, ABŞ-da əksər vergi ödəyicilərinə adambaşı 1,4 min ABŞ dollar birbaşa ödəniş nəzərdə tutulur. Bundan başqa işsizliyə görə federal büdcədən ödənişlər ştatların ödədiyi vəsaitdən əlavə avqust ayına qədər həftədə 300 ABŞ dollarına bərabər olacaq.

Bundan əlavə, qanun layihəsində koronavirus pandemiyasının aradan qaldırılmasına kömək məqsədilə məktəblərə 130 milyard ABŞ dollar, kollec və universitetlərə daha 40 milyard ABŞ dollar ayrılması nəzərdə tutulur. (”Report”)

Ştatlar və dairələr səviyyəsində yerli hökumət orqanları 350 milyard ABŞ dollar dəstək alacaqlar. Aviaşirkətlərə dəstək üçün 15 milyard ABŞ dollar, restoranlara dəstək üçün 25 milyard ABŞ dollar, COVID-19 testlərinin çoxalması üçün təqribən 50 milyard ABŞ dollar ayrılıb.

# Zamanın melodiyası...



## Qaş düzəltdiyimiz yerdə vurub gözü çıxarırıq



# Sanki qara bir əl ölkədə intiharları təbliğ edir

Son iki gündə medianın və sosial şəbəkələrin gündəminin əsas müzakirə mövzusu iki məktəblinin intihar etməsidir. Maraqlısı isə intihar edənlərin sinif yoldaşı olmasıdır. Bundan öncə isə 17 yaşlı Gülər Əliyevanın, 14 yaşlı Elina Hacıyevanın və 18 yaşlı Aynur Məmmədzadənin də özünə qəsdi gündəmə gəlmişdi. Çox təəssüf ki, bu hadisələrdə intihar yaşının cavanlaşması diqqəti cəlb edir. Ümumilikdə intihar qurbanlarının sayı müharibə və qətl nəticəsində həyatını itirənlərdən daha çoxdur.



*Bu kimi hadisələrin mediada işıqlandırılması da insanlara mənfi təsir edir*

Bu bir faktdır ki, dünyada hər 40 saniyədə bir insan intihar edir. Statistik məlumatlara görə, intihara cəhd edənlərin əksəriyyəti isə 15-34 yaş arasında olan gənclərdir. Təəssüflə qeyd etmək lazımdır ki, son statistikaya görə, pandemiya ilə əlaqədar olaraq intiharın artacağı da proqnozlaşdırılır. İntihar hadisələri barədə danışanda, xüsusilə sosial mediada daha çox sosial və maddi durum səbəb kimi göstərilir. Amma maddi və sosial təminatları ən üst səviyyədə olduğu Qərbi Avropa ölkələrinin intiharların sayına görə liderlik etdikləri də faktdır. Ölkəmizdə intiharların statistikası və bu sahədə aparılan mübarizə tədbirləri barədə rəsmi məlumatlar tapmaq asan deyil. Bəzi mütəxəssislər intihar hallarının artmasında medianın rolunu olduğunu bildirirlər. Onlar hesab edirlər ki, mediada ardıcıl olaraq intiharla bağlı xəbərlərin yayılması ona meyilliyi daha da artırır. Bu bir faktdır ki, son günlər ölkədə intihar hadisələri ardıcıl baş verməkdədir. Sual yaranır. Bu nə ilə əlaqədardır - daxili mənəviyyatın, dinə bağlılığın zəifliyi, yoxsa valideyn və cəmiyyətin tərbiyələndirməsinin zəifliyi ilə? Yoxsa elə mediada yayılan intihar xəbərləri ilə?

**Mövzu ilə bağlı ”Şərq”ə danışan ”Kimsəsiz Uşaqların Sosial Müdafiəsi” İB-nin sədri Lamiyə İsazadə bildirib ki, intiharın səbəblərini sadəcə sağlamlıqla əlaqələndirmək heç də doğru yanaşma deyil.** O qeyd edib ki, ilkin səbəb kimi cəmiyyətdə yer alan sosial amilləri qeyd etmək olar: ”Unutmayaq ki, cəmiyyətdə insanları şəxsiyyət kimi formalaşdıran və özünə inamı artıran ən güclü amillərdən biri sosial faktlardır. Məhz bu səbəbdən də əgər fərd sosial mühitdə baş verən dəyişikliklərə uyğunlaşa bilmirsə, ailədən, cəmiyyətdən uzaqlaşıb, özünə qapanırsa, onda psixoloji sarsıntılar yaranır. Bəzi hallarda bu, intiharla nəticələnir. Həmçinin kompüter, mobil telefon, internetdən istifadə də gənclərimizin intihar etməsinə digər səbəb kimi göstərilə bilər. İnternetdə yeniyetmə və gənclər qeyri-real həyatda yaşayırlar. Onlar bəzi blogerlərin həyatını izləyir və özləri o cür yaşaya bilməyəndə bu onlara mənfi təsir edir, depressiyaya düşürlər. İnternetdə gənclərin psixologiyasına mənfi təsir göstərən yüzlərlə səhifələr var. Uşaqlarımızın internetdə nələri izlədiyinə, sosial şəbəkələrdə və real həyatda kimlərlə dostluq etdiyinə daim diqqət etməliyik. Fransız sosioloqu, Fransa sosiologiya məktəbinin banisi Emil Durkheym intiharı ”sosial məcburiyyət” adlandırıb. İntiharın səbəbini problem olaraq şəxsin özündən çox onun yaşadığı ətraf mühitlə, cəmiyyətlə əlaqələndirib. Bu, həqiqətən belədir. Hər kəsin ətraf mühiti onun həyatına ciddi təsir göstərir. İstər mənfi, istərsə də müsbət. Ona görə də valideynlər övladlarının həyatına daim nəzarət etməlidir. Bu mövzuda valideynlərin üzərinə böyük məsuliyyət düşür”.

*L.İsazadə əlavə edib ki, intihar hadisələrinin mediada işıqlandırılması yeniyetmə və gənclərimizə olduqca mənfi təsir edir:* ”Bu kimi xəbərlər sanki intiharı təbliğ edir. Ona görə də təklif edirəm ki, milli mediamızda intihar hadisələri yayımlanmasın. Sadəcə ildə bir dəfə mediada il ərzində ölkəmizdə baş verən intihar statistikası açıqlansın. Hesab edirəm ki, intihar probleminin sosial səbəblərinin araşdırılması, bu hadisələrin qarşısının alınması üzrə irimiqyaslı proqramların hazırlanması daha məqsədəuyğundur. Bu mövzuda gənclərlə, eləcə də onların valideynləri ilə maarifləndirici tədbirlərin təşkili olduqca mühümdür. Müasir dünyada insan həyatının bütün dəyərlər sistemində ən önəmli yer tutması xarakterikdir. Buna görə də intihar və intihara cəhd halları qeyri-təbii ölüm kimi, sağlamlığa qəsd kimi mənəvi-neqativ addım olaraq cəmiyyəti onunla aktiv mübarizəyə qaldırmalıdır. Bir sözlə, ”sağlam düşüncəli cəmiyyət”in formalaşdırılması və inkişaf etdirilməsi ön plana çəkilməlidir”.

**Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli isə ”Şərq”ə açıqlamasında bildirib ki, intihar xəbərlərin daha çox verilməsi, eyni zamanda yayılması reklam xarakteri daşıyır. Yəni bunu sanki reklam etmiş oluruq:** ”Bu məsələyə mediada olduqca həssas yanaşmaq lazımdır. Ən pisi odur ki, bizim mediada bu cür hadisələri açıqlığı və təfərrüatı ilə verirlər. Yəni kim harda, necə, nə üçün və s. Yəni bütün bunlar dəqiq araşdırılmayan məsələlərdir. Buna görə də, belə məsələlərdə çox diqqətli olmaq vacibdir. Ona görə ki, bu hamıda ümumi bir vəziyyət deyil. Hər bir kəsin fərdi məsələsidir. Media işçiləri anlamalıdırlar ki, hər bir kəsin ayrı psixoloji durumu mövcuddur”.

*Y.Məmmədli qeyd edib ki, dünyada ən çox intihar hadisələri inkişaf etmiş ölkələr baş verir:* ”Skandinaviya ölkələri indi ən çox gənclərin intihar etdiyi ölkələrdir. İntiharları onunla əsaslandırırlar ki, günəş il ərzində orada az olur. Ona görə də günəş olmayan yerlərdə insanlarda özünə qapılma hissləri baş verir. Bu, intihar səbəblərindən biridir. Təbii ki, bu da tam dəqiq təsdiqlənmiş məlumat deyil. Bizdə cinayət və intihar barədə informasiyalar həddən artıq açıq formada verilir. Bir məsələyə diqqət çəkmək istəyirəm. Bu yaxınlarda medialarımız qazilərimizin intihar etməsi ilə bağlı faktları geniş formada yayımladılar. Təbii ki, bunun yayımlanması heç doğru deyildi. Nəyə görə? Birincisi, belə şəxslərin intiharındansa, qazilərimizin səhhətini, durumunu, psixoloji vəziyyətini daha çox qabartmalıyıq. Bu məsələlərin üzərinə getməliyik. Bunların hamısı da fərdi məsələlərdir. Biz bəzən bunu qaldırıb o həddə çatdırırıq ki, o, ümumi bir məsələ kimi gedir. Belə məsələlərə də həssas yanaşmaq lazımdır. Bu o demək deyil ki, biz həmin hadisələri gizlədirik, əslində gizlətmirik. Sadəcə mediada daha çox pozitiv məsələ vermək lazımdır. Bu həm də günümüzün tələbidir. Bildiyimiz kimi, bir ilə yaxındır ki, dünya pandemiya təzyiqi, basqısı, əsarəti altındadır. Pandemiya istər-istəməz insanlarda gərginlik yaradıb. İnsanların üzərində basqı olduğuna görə onlarda gərginlik var. Hər kəs də bunu hiss edir. Bu, elə gələn bir bəladır. Bunu təbii fəlakət kimi qəbul etmək lazımdır. Bu zaman necə davranırlar? İnsanlar daha çox bir-birinə kömək eləməlidir. Hər bir kəsin bu məsələdə fərdi dözüm məsələsi var. Bəzi adamlar dözə bilmirlər. Onlara sayqı ilə yanaşmaq lazımdır. Mənə elə gəlir ki, bu daha doğrudur. Yaxşı olar ki, mediamız həmin hadisələri araşdırsın. Hər hansı bir durumu ictimailəşdirməklə müvafiq qurum qarşısında məsələ qaldırıb insanlara kömək edə bilərik. Biz medianın üzərinə düşən də elə budur”.

**Aynurə Pənahqızı**

## Koronavirusa yoluxanların sayı 600-ü keçdi

### Daha 128 nəfər sağalıb, 5 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 608 yeni yoluxma faktı qeydə alınıb, 128 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 5 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 238 383 nəfər koronavirus infeksiyasına yoluxub.

Onlardan 230 244 nəfər müalicə olunaraq sağalıb, 3 262 nəfər vəfat edib, aktiv xəstə sayı 4 877 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 503, ötən müddət ərzində isə ümumilikdə 2 682 116 test aparılıb.

## Ərdoğanın oğlu İçərişəhərdə olub

### O, “Şirvanşahlar” sarayını da ziyarət edib



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın oğlu Bilal Ərdoğan Azərbaycana gəlib.**

Modern.az xəbər verir ki, Bilal Ərdoğan dünən İçərişəhərdə olub. O, ”Şirvanşahlar” sarayını ziyarət edib.

Bilal Ərdoğanın Bakıda bir sıra görüşlərdə iştirakı gözlənilir.

*Qeyd edək ki, Türkiyənin tanınmış iş adamı olan Bilal Ərdoğan bundan əvvəl də Azərbaycanda olub.*

## İstintaq başlayıb

### Gürcüstanda jurnalistlərə sui-qəsd hazırlandığı bildirilir



**Gürcüstanın Daxili İşlər Nazirliyi (DİN) jurnalistlərə qarşı sui-qəsd hazırlığı barədə yayılan məlumatla bağlı istintaqa başlayıb.**

”Report”un yerli bürosu xəbər verir ki, bu barədə DİN-dən bildirilib.

İstintaq Cinayət Məcəlləsinin iki və ya daha çox şəxsin ağırlaşdırıcı hallarda qəsdən qətlinə hazırlıq maddəsi üzrə aparılır.

*Qeyd edək ki, Kvemo Kartli bölgəsinin keçmiş qubernatoru Levan Mamaladze bu gün ”İmedi” telekanalına Gürcüstanın sabiq prezidenti Mixeil Saakaşvili və keçmiş ədliyyə naziri Zurab Adeişvilinin jurnalistlərə sui-qəsd etməyi planlaşdırdıqlarını bildirib. O, bu məlumatı Ukraynadakı mənbədən əldə etdiyini açıqlayıb.*

# Hədəfi tək atəşlə susdururdu

## Qəhrəman snayperçi canını Vətənə fəda edib







**Vətən müharibəsində şəhidlik zirvəsinə yüksələn oğullarımızın xatirəsi hər birimiz üçün əziz, doğmadır. Müqəddəs adlarını əbədiləşdirmək də ən ümdə vəzifəmizdir.**

"Şərq" daha bir şəhid qardaşımız haqqında məlumatı sizə təqdim edir. O, Xüsusi Təyinatlı qüvvələrin kiçik giziri Röyal Şahin oğlu Mədətovdur. İgidimiz 14 May 1992-ci il tarixində Qazax rayonunda dünyaya göz açıb. Hüseynbəyli kənd Alı Əliyev adına orta məktəbində 1999-2010-cu illərdə təhsil alıb. 2011-ci ildə hərbi xidmətdən sonra, Ağdam rayonunda "N" saylı hərbi hissədə çalışmağa başlayıb. Röyal Aprel döyüşlərində də savaşıb, böyük şücaət göstərib.

Qəhrəmanımız ötən il sentyabrın 27-də müharibəyə yollanıb. Murovdağ yüksəkliyi, Cəbrayıl, Füzuli, Kəlbəcər, Xocavənd, Şuşa istiqaməti, Qırmızı bazar döyüşlərində vuruşub. Oktyabr 22-i şəhadətə qovuşub, iki gün sonra doğma kəndində torpağa tapşırılıb.

Röyal onlarla düşmən hərbçini və hərbi texnikasını məhv edib. Deyirlər, hədəfini tək atəşlə məhv etməyi bacaran snayperçi olub.

**Atası danışır ki, Röyalın dilindən Vətənin adı düşmürdü:**

"Deyirdi, ata, bütün ərazilərdə üçrəngli bayrağımız dalğanacaq: "Erməni kimdir ki, bizim torpağımızda məskən salsın".

**Şəhidimizin anası Zərifə xanım deyir ki, oğlu ilə son dəfə danışanda yaralı olduğunu ona bildirməyib:** "Söylədi ki, təlimdəyəm".

Demə, Röyal Füzulidə yaralanıb, həkim döyüşə qayıtmamasını məsləhət görüb. O, isə yenidən ön cəbhəyə dönüb. Düşmənin 3 maşın kolonunu partladıb, tağımı ilə birgə 100-ə yaxın mənfuru gəbərdib.

*Röyal Mədətov ölümündən sonra "Azərbaycan bayrağı" ordeni, "Vətən uğrunda", Füzulinin, Kəlbəcərin, Şuşanın, Xocavəndin, Cəbrayılın azad olunmasına görə medalları ilə təltif olunub.*

**Samirə Ərəblinski**



## İnsident yaşanmadı

### 130 ton humanitar yük Kəlbəcərə çatdırılıb

**Rusiya sülhməramlıları Kəlbəcər rayonuna 20 yük avtomobilindən ibarət 130 ton humanitar yükün çatdırılmasını təmin edib.**

Bu barədə Rusiya Müdafiə Nazirliyinin (MN) mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Rusiya Humanitar Reaksiya Mərkəzinin altıncı karvanı 130 tondan çox yükü *(elektrik avadanlıqları, dəmir-beton konstruksiyalar və inşaat malları)* sosial obyektlərin və yaşayış evlərinin enerji və su təminatı sistemlərinin bərpa olunması məqsədilə Kəlbəcər rayonuna çatdırıb.

"Yardım Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9 noyabr 2020-ci il tarixli sazişi çərçivəsində Azərbaycan tərəfinə göstərilib", - deyə Rusiya MN-in məlumatında qeyd olunub.

## 2020-ci ildəki kabus bir də olmayacaq

**Koronavirus qısa zamanda adi qrip kimi sıradan xəstəlik halına gəlməyəcək, amma 2020-ci ildəki kabus 2021-ci ildə davam etməyəcək.** Axar.az xəbər verir ki, bu sözləri Türkiyə Səhiyyə naziri Fəxrəddin Qoca deyib.

"1 il davam edən epidemiya daha səbrimizi tükəndirməyəcək. Əhalimizin 50 milyonunu payızdan öncə peyvənd etdirsək pandemiyanın təsiri və yoluxma sayı ciddi şəkildə azalacaq", - deyə Qoca bildirib.



## Yavru vətən, mübarəksən!

### Yeni doğulan daha bir şəhid övladının zəruri xərcləri qarşılanıb

**"YAŞAT" Fondunun Vətən müharibəsindən sonra dünyaya gələn şəhid övladları üçün layihəsi davam edir.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən "Şərq"ə verilən məlumata görə, daha bir şəhidimizin yeni doğulan övladının - şəhidimiz Nurlan Mustafayevin övladı Nurlanın zəruri xərcləri Fond tərəfindən qarşılanıb. Bu məqsədlə 1000 AZN anaya təqdim olunub və dünyaya yeni göz açan körpənin adına 5000 AZN-lik hesab açılacaq. Həmin hesaba vəsait Fonda edilən ianələr hesabına toplanmış məbləğdən köçürülür. Həmin məbləğin üzərinə mütəmadi olaraq faiz toplanılacaq və həmin şəhid övladı 16 yaşına çatdıqdan sonra toplanan məbləği özü hesabından çıxara biləcək.

Qeyd edək ki, bankla ana arasında bağlanmış müqaviləyə əsasən bəzi zəruri hallarda ana həmin vəsaiti daha tez çıxara biləcək. Həmçinin ana həmin məbləği istənilən valyutaya da dəyişə bilər. Allah şəhidimizə rəhmət etsin!

*Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət etmək və Fondun fəaliyyəti ilə tanış olmaq üçün yashat.gov.az portalı istifadədir.*

# "Ölümü göz önünə almışdım"

## Şuşa fatehi Mirzə Süleymanov: "Bizə içində adlarımızın yazıldığı gilizlər paylananda bildim ki"

Sonuncu Qarabağ müharibəsində biabırçı formada məğlub olmalarına baxmayaraq, ermənilər hələ də qisasdan danışırlar. Daxildəki revanşist qüvvələr torpaqların tarixi sahiblərinə qayıtması ilə heç cür barışa bilmirlər. Bu isə o deməkdir ki, məsələyə hələ də nöqtə qoyulmayıb. Yəni növbəti savaşın başlanması ehtimalı var. Lakin rahatıq.



Çünki bizim bir ölən, yüz doğulan qəhrəmanlarımız kifayət qədərdir. Onların müəyyən hissəsini 44 günlük hərbi əməliyyatlarda tanıdıq. Belə igidlərdən biri də 1994-cü il təvəllüdlü Mirzə Süleymanovdur.

O, 2012-ci il orta məktəbi bitirdikdən sonra hərbi xidmətə çağırılıb. N saylı hərbi hissədə qulluq edib. 2014-cü ildə isə ehtiyata buraxılıb. Və düz altı il sonra yenidən hərbi forma geyinib.

**Ana vətən minlərlə digər oğlu kimi onu da çağırıb. Müsahibimiz "Şərq"ə açıqlamasında çox ciddi çətinliklərdən keçdiyini söyləyib:**

"Sentyabrın 21-də N saylı hərbi hissədə təlimlərə göndərildim. 6 gün sonra isə sıravi əsgər kimi sürücü vəzifəsində torpaqların azad olunması uğrunda döyüşlərə başladım.

Füzuli istiqamətində hərəkətə keçdik. Cəbrayıl, Hadrut, Xocavənd, Daşaltı, Şuşa və Laçında gedən ağır döyüşlərdə iştirak etdim. Döyüşlərə girməzdən əvvəl bizə içində adlarımızın yazıldığı gilizlər paylanmışdı. Yalnız o zaman müharibənin başlandığını başa düşdüm. Füzulinin Alxanlı kəndindəki döyüşlər çox ağır idi. Ölümümü göz önünə almışdım. Lakin digərləri kimi mən də qorxmadan, cəsarətlə irəliləyirdim. Atdığımız hər addım düşmənə göz dağı idi".

O, həmçinin döyüş yollarını təsvir etdi: "Dediyim kimi, ən çətin hərbi əməliyyatlar Füzulidə oldu. Yoldaşlarımız gözümüz qabağında yaralanır, şəhadətə qovuşurdu. Amma həvəsdən düşmürdük. Müvafiq tapşırıqları aldıqdan sonra Cəbrayıl istiqamətində hərəkətə başladıq.

Hər saniyəmiz ölüm idi. Ardınca Xocavənd rayonunun Tuğ kəndinə, sonra isə Topxana meşəsi ilə Daşaltıya doğru getdik.

Düşmənin həmin yolu ağır artilleriya ilə atəşə tutmasına baxmayaraq, əsla qorxmurdum. Gecə-gündüz bilmədən xidmət etmişəm. Ali Baş Komandanın qələbə xəbərini eşidəndə sevincimin həddi-hüdudu yox idi.

Şəhid qardaşlarımız üçün nə qədər kədərlənirəmsə, tarixi zəfərimizə görə də bir o qədər sevinirəm".

**Kənan Novruzov**

# Müharibə ehtimalı hər gün artır

## *Ukrayna-Rusiya münasibətlərinin dinc yolla həll olunacağı şübhə doğurur*



"Xüsusilə ABŞ Prezidenti Co Bayden işğala məruz qalan tərəfə dəstəyini açıq ifadə edir"

Rusiya ilə Ukrayna arasında münasibətlər gərginləşməkdədir. İddialara görə, Kreml Qarabağ senarisini Donbasda təkrarlamaq, burada da əslində separatçılıqla məşğul olan "sülhməramlılar" yerləşdirmək istəyir. İkinci bir tərəfdən isə Ukraynanın davam etdirdiyi hərbi təlimlər onu deməyə əsas verir ki, "daş qayaya rast gəlib". Görünür, Ukraynanın "səbr kasası" dolub və daha işğala dözmək fikri yoxdur. Yəni tərəflər arasında müharibənin başlanması an məsələsidir.

***Bu barədə "Şərq"ə danışan politoloq Natiq Mirinin fikrincə, müharibənin start götürməsi ehtimalı çoxdur:*** "Son Qarabağ savaşında Azərbaycanın qazandığı uğur postsovet ölkərinə bir növ nümunə oldu. Bizimlə eyni taleyi yaşayan ölkələr, o cümlədən Ukrayna həm ilhamlandı, həm də təcrübəmizdən istifadə etdi.

Onlar çox qısa müddətdə hərbi əməliyyatlar yolu ilə tarixi ədaləti bərpa etməyin mümkünlüyünü anladılar. İndi həmin dövlətlər bizim praktikamızı öyrənirlər.

Ukraynanın torpaqlarını azad etmək uğrunda mübarizəyə başlaması tam mümkündür. Birincisi, eyni ilə bizim kimi havada dominantlığı təmin etmək məqsədilə qardaş Türkiyədən PUA-lar alınır. Bu silahlar sürətli irəliləmək və quru qoşunlarının işini asanlaşdırmaq üçün xüsusi əhəmiyyətlidir.

İkincisi, Ukraynaya ciddi beynəlxalq dəstək var. Xüsusilə ABŞ Prezidenti Co Bayden işğala məruz qalan tərəfə dəstəyini açıq ifadə edir. Daha konkret desək, ABŞ Rusiyanı Qara dənizdə neytrallaşdırmaqdan ötrü Ukraynadan geosiyasi alət kimi yararlanmaq istəyir.

Növbəti məqam isə relyeflə əlaqələdir. Qarabağ dağlıq ərazi idi və ermənilərin yüksəkliklərdə mövqe tutması bizim işimizi xeyli çətinləşdirirdi. Lakin Ukraynanın tapdaq altındakı torpaqlarının relyefi daha əlverişlidir.

Və ən nəhayət, beynəlxalq hüquq heç bir halda Kremlin siyasətini dəstəkləmir. Bütün bunları nəzərə alaraq, Ukraynanın yaz aylarına doğru hərbi əməliyyatlara başlayacağını düşünürəm".

***N.Miri tərəflər arasındakı münasibətlərin dinc yolla həll olunacağını düşünmür:*** "Məncə, Ukrayna prezidenti rusiyalı həmkarına görüş təklif edəcək. Bu, xəbərdarlıq xarakteri daşıyır. Amma Vladimir Putinin sülhə razı olacağı qənaətində deyiləm. Çünki ictimai narazılığın, iqtisadi böhranın artdığı bir vaxtda insanları ancaq belə kiçik "hərbi uğurlarla" aldatmaq olar. Yəni rəsmi Moskva geri çəkilməyəcək".

**Kənan Novruzov**



# Koronavirusdan müalicə alacaqlar

## Bəşər Əsəd və xanımı Moskvaya gətirilib

Vaksinasiya işlərinə baxmayaraq koronavirus bütün dünyada yayılmağa davam edir. İndiyədək milyonlarla dünya əhalisi həmin virusa yoluxub. Onlardan biri də Suriyada minlərlə günahsızın qanına bais olan Bəşər Əsəddir.

Ötən günlərdə COVID-19 virusuna tutulduğu elan edilən Bəşər Əsəd və həyat yoldaşı Əsma Əsədin səhhəti pisləşib.

Bildirilir ki, onlar koronavirusa tutulduqdan sonra xüsusi bir təyyarə ilə Rusiyanın paytaxtı Moskvaya gətiriliblər.

Suriyada yerləşən Rusiya qüvvələrinin sözcüsü Aleksandr İvanov, Əsəd və həyat yoldaşının Moskvada müalicə alması ilə əlaqədar açıqlama verib: "Suriya Prezidenti Bəşər Əsəd koronavirusa yoluxandan sonra müalicə üçün Moskvaya gəlib. Həkimlərimiz tez müdaxilə edib. Əsəd hələ də müalicə alır. Yaxın zamanlarda yaxşılaşacağını ümid edirik"- deyə bildirib.

**Ağarza**

# Koronanın yeni növü yayılır

## "Rəsmilərin fikrincə, bu virus Yaponiyaya kənar bir yerdən gəlib"

Yaponiyada 396 nəfərin koronavirus xəstəliyinin daha əvvəl heç rast gəlinməmiş növünə yoluxduğu bildirilir.

Keçici Xəstəliklər Milli İnstitutu bu barədə məlumat verib. Yeni növ koronavirusa yoluxma hallarına paytaxt Tokionun olduğu Kanton ərazisində rast gəlinib. Qurum hazırlanan vaksinin yeni növ koronavirusa təsir etməyəcəyindən narahatdır. Rəsmilərin fikrincə, bu virus Yaponiyaya kənar bir yerdən gəlib. Amma hələ də bu barədə dəqiq məlumat yoxdur.

**Kənan**

# Orduya "hazır ol" əmri verilib

## Çin ABŞ-a əzələ nümayiş etdirir

Asiya Sakit okean bölgəsində qorxulu bir qitə oldu. Çin Prezidenti Xi Cinpinq orduya "hazır ol" əmri verib. Ötən günlərdə ABŞ-a "həddi aşmayın" kimi xəbərdarlıq edən Çində bu məsələ gündəmə gəlib.

Pekin iqtidarında müharibə ehtimalı müzakirə olunub. Verilən xəbərlərə görə, ABŞ rəsmiləri Çinin növbəti hədəfinə işarə edərək deyiblər ki, havadan müdafiə sistemləri yaradılmalıdır.

Xi Cinpinq silahlı qüvvələrin nümayəndələrinin iştirak etdiyi bir tədbirdə bu barədə danışıb. O, həmçinin orduda texnoloji yeniliklərdən istifadə olunmalı olduğunu vurğulayıb. İclasdakı başqa bir müzakirə mövzusu isə texnoloji yeniliklərdən istifadədə ABŞ-ı qabaqlamaq olub. Donanma komandirinin sözlərinə görə, qalib gəmək üçün bu, əsas şərtdir. Prezident 2050-ci ilədək dünya miqyasında bir ordu yaradılacağını deyib. Onun sözlərinə görə, layihə 2035-ci ilədək başa çatacaq.

**Kənan**

# Diqqətsizlik faciələrə gətirib çıxarır

## *Qatarla avtomobil yollarının kəsişməsində xüsusi nişanlar olur, əməl edilməlidir*

Ötən gün Sumqayıt stansiyasının yaxınlığında ölümlə nəticələnən bədbəxt hadisə baş verib. "Azərbaycan Dəmir Yolları" (ADY) QSC-dən bildirilib ki, saat 13:20 radələrində 10 çən vaqonu manevr teplovozu ilə Sumqayıt Çay Stansiyasına gətirilərkən qorunmayan dəmir yolu keçidindən keçməyə cəhd göstərən Maarif Valeh oğlu Lazımovun idarə etdiyi mikroavtobusla toqquşub: "Hadisə nəticəsində qatar tərtibatçısı Murtuz Aleksey oğlu Abdullayev dünyasını dəyişib. Hadisənin başvermə səbəbini müvafiq orqanlar aidiyyəti üzrə araşdırıb, hüquqi qiymət verəcək.



**Mövzu ilə bağlı fikirlərini bölüşən təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev "Şərq"ə açıqlamasında bildirib ki, dəmir yolu xətlərinin avtomobil yolları ilə kəsişməsində zəruri olan nişanlar var:** "İlk növbədə bu nişanlara diqqət edilməsi zəruridir. Bunlara yol nişanları, səs və işıq siqnalları, şlaqbaunlar, dəmir yolu xəttinə yaxınlaşmaya dair xəbərdarlıq nişanları aiddir. Yəni şlaqbaunlu dəmir yol keçidi, şlaqbaunsuz dəmir yol keçidi, bir xətli dəmir yolu, çox xətli dəmir yolu nişanları vardır. Təbii ki, bu nişanlar sayəsində sürücülər öncədən dəmir yolu xəttinə yaxınlaşdıqlarına dair məlumatlı olurlar. Digər tərəfdən isə Yol hərəkəti haqqında Azərbaycan Respublikasının qanununda da qeyd edilib ki, nəqliyyat vasitələrinin sürücüləri dəmir yollarını qatara yol verməklə keçə bilərlər. Sürücü dəmir yol keçidinə yaxınlaşdıqda yaxınlaşan qatarın olmadığını yəqin etməli, yol nişanlarının, işıqforların, şlaqbaunların, nişanlanma xətlərinin tələbinə riayət etməlidir. Əgər nizamlanan yol ayırıcıdırsa şlaqbaun bağlanmalıdır. İki yanıb-sönən qırmızı işıq isə hərəkəti qadağan edir. Şlaqbaunlu dəmir yol ayırıcısına yaxınlaşan maşın şlaqbauna azı 5 metr məsafə qalmış saxlamalı, şlaqbaun olmadıqda isə azı 10 metr məsafə qalmış dayanmalıdır".

**E.Nurəliyev əlavə edib ki, əgər məcburiyyətdən yəni nasazlıq, yaxud texniki səbəbdən dəmir yolu keçidində dayanarsa, bu zaman sürücü mütləq maşında olan sərnişinləri düşürtməlidir:** "Bundan sonra sürücü qatarın yolunun hər iki istiqamətinə 1000 metr məsafədə adam göndərməsini təşkil etməlidir. Yaxınlaşan qatara isə dayanma siqnalı verməlidir. Yəni bunlar təhlükəsizlik tədbirləridir ki, dəmir yolu ilə kəsişmədə qatarla nəqliyyat vasitələri toqquşmasın. Təbii ki, əgər bu qaydalara ciddi şəkildə riayət olunmazsa, bu zaman qəzadan yayınmaq qaçılmazdır".

**Aynurə Pənahqızı**

## Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi

# “Azərbaycan jurnalistləri məncə, bunu bacardılar”

### *Dan Mason: “Daha məqsədəuyğunu “fake news”lara hazır olmaqdır”*



44 gün davam edən sonuncu Qarabağ müharibəsi, əlbəttə, təkcə daxildə izlənilmirdi. Hətta ayrı-ayrı qitələrdə də bizdən, apardığımız haqq savaşından danışılırdı. Düzdür, dünyanın nüfuzlu xarici informasiya agentlikləri, nəşr və qəzetləri, televiziya müxbirləri, hərbi jurnalist və analitikləri hazırlanan reportaj və çoxsaylı materiallarda Qarabağda baş verən döyüşlərin gedişatını, ictimai-siyasi vəziyyəti müxtəlif rakursdan şərh edib ictimaiyyətə çatdırırdılar.

Beynəlxalq medianın 44 günlük müharibədə baş verən proseslər barədə mövqeyi hər iki münaqişə tərəfindən reportaj hazırlayan müxbirlərin obyektivlik, tərəfsizlik və qərəzsizlik prinsiplərinə nə dərəcədə əməl etməsi, media orqanının məsələlərə baxış bucağında öz əksini tapdı. Bu baxımdan çoxsaylı materialların təhlili göstərir ki, beynəlxalq mediada bir sıra qərəzli mövqedən olan materiallara baxmayaraq, ümumilikdə məqalə və reportajların, videomaterialların əksəriyyətində Azərbaycan torpaqlarının bir hissəsinin uzun illərdən bəri işğala məruz qalması, Azərbaycanın beynəlxalq hüquq və BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində öz ərazi bütövlüyünü bərpa etməsi, işğal altında olan ərazilərdə erməni vandallığı və s. öz əksini tapıb. Birinci Qarabağ müharibəsində olduğu kimi, bu dəfə də Avropa, Amerika, Asiya ölkələrinin bir sıra nüfuzlu nəşrləri baş verən döyüşləri, cəbhədə baş verən yenilikləri gündəmdə saxlamışlar. Bu baxımdan “Reuters”, “Associated Press”, “France Press”, “Anadolu”, “Sinxua”, kimi dünyanın nüfuzlu agentlikləri müharibənin ilk günündən sona qədər gündəlik olaraq, Qarabağda baş verənlər barədə xəbərlər, foto və videolar yayımlaması xüsusi qeyd edilməlidir. Müharibənin gedişində bir sıra xarici media orqanlarının Azərbaycana müxbirlərini göndərməsi və ya ölkəmizdəki müxbirlərinin köməyi ilə döyüşlərin getdiyi qaynar nöqtələrdən çoxsaylı materiallar, xüsusilə də videoreportajlar hazırlaması Azərbaycan həqiqətlərinin beynəlxalq aləmə çatdırılması baxımından əhəmiyyətli rol oynadı. Amma bir məsələni qeyd edək ki, 44 günlük müharibə dövründə Qərb mediasının xəbər portallarında qeyri-obyektivliyi də çox rast gəlinirdi. BBC müharibə dövründə hətta onun Azərbaycan nümayəndəliyi sözügedən müharibə və onun həqiqətlərini yayarkən jurnalistikanın prinsiplərinə əməl etməyərək birtərəfli mövqeyini açıq-aydın şəkildə nümayiş etdirdi. Belə ki, onlar Dağlıq Qarabağı mübahisəli və ermənilərin çoxluq təşkil etdikləri anklav kimi təqdim etdilər. Hətta onlar dəfələrlə yanlış olaraq, guya, Qarabağ müharibəsinə aid olan videoları “Facebook”, “Twitter”, “YouTube”, “TikTok” şəbəkələrində götürərək feyk xəbərlər yayımladılar. Avropa multimedia xəbər portalı “Euroreporter” də Qərb mediasının Qarabağ konflikti ilə bağlı məqalə yayımlamışdı. Araşdırmanın müəllifi Filip Jyen yazının girişində Qərb mətbuatının müasir dövrdə balanslı və obyektiv olmamasının sual doğurmasını qeyd etmişdi. Müəllif məqalədə Ermənistanın silahlı qüvvələrinin təcavüzkar hərəkətlərinə, dinc azərbaycanlıların Gəncə, Tərtər və Bərdədə öldürülməsinə dünya mediasının biganə qalmasını da vurğulamışdı. Münaqişənin təsvirində ən radikal mövqeni isə “Reuters” informasiya agentliyi tutdu. Agentlik xəbərlərində Dağlıq Qarabağı Azərbaycandan ayrı tərəf kimi təqdim edirdi. Məsələn, 14 oktyabrda “Azərbaycan Prezidenti Azərbaycanın Dağlıq Qarabağdakı hərbi əməliyyatları davam etdirdiyini söylədi”, “Ermənistanın Baş naziri Paşinyan deyir ki, Azərbaycanın bütün Dağlıq Qarabağı işğal etmək fikri var” başlıqlı xəbərlər buna sübutdur. Göründüyü kimi, çox təəssüflər olsun ki, bir çox xarici media faktları təhrif etməklə, dünyanın ictimai rəyini dəfələrlə çaşdırmağa çalışdılar.

***“Şərq” olaraq biz də 44 günlük hərbi əməliyyatlarda informasiya məkanındakı fəaliyyətimizi qiymətləndirməkdən ötrü britaniyalı tanınmış jurnalist, multimedia təlimçisi Dan Masonla müzakirələr apardıq. Həmin müzakirəni təqdim edirik:***

**- Azərbaycanın tarixi qələbəsini necə qiymətləndirirsiniz?**

- Azərbaycan hərbçiləri çox operativ davrandılar və məqsədə sürətlə çatdılar. Eyni zamanda ordunuz təmkinliliyi və peşəkarlığı ilə beynəlxalq qurumların rəğbətini qazandı. Lakin rəsmi Bakı üçün qələbə bununla bitmir. Mən bilirəm ki, regionda sülhü və sabitliyi qorumaq istəyirsiniz. Bunun üçün çalışmaq lazımdır.

**- Qazanılan zəfərdə jurnalistlərin rolu nədən ibarət oldu?**

- Müharibə yerli jurnalistlər üçün fəaliyyət qaydalarını dəyişdirir. Belə ki, informasiya axını üzərində daha sıx nəzarət olur, xəbərə tələbat artır. Əlbəttə, bu cür şəraitdə işləmək daha çətindir. Eyni zamanda cəbhə müxbirləri müəyyən təhlükəsizlik qaydalarını da nəzərə almalı olurlar. Azərbaycan jurnalistlərinin əsas işi informasiyaya olan tələbatı ödəməkdən, məsuliyyətli davranmaqdan və etibarlı mənbələrə istinad etməkdən ibarət idi. Məncə, bunu bacardılar.

**- Belə vəziyyətlərdə informasiya müharibəsi ilə bağlı nə deyə bilərsiniz?**

- İnformasiyanın və ya dezinformasiyanın hərbi vəziyyətə, beynəlxalq ictimai rəyə təsir gücü müəyyənləşdikdən sonra ondan silah kimi istifadə olunur. Fors-major hadisələr zamanı mövcud durumu dəyişmək üçün informasiya savaşından istifadə edilməsinə dair xeyli nümunə var. Bu mənada peşəkar jurnalistlərin yaydıqları xəbərlərin informasiya müharibəsinin bir hissəsi olduğunu iddia edə bilərik. Hərçənd “Twitter”dəki “Karabagh is Azerbaijan”, “Artshax is strong” haştaqları da top atəşini xatırladırdı. Əslində xüsusilə belə məqamlarda professional jurnalistlərin öhdəsinə böyük iş düşür. Əgər onlar insanların axtardıqları informasiyanı verə bilmirsə, bunu başqaları, o cümlədən sosial media istifadəçiləri “istehsal edəcəklər”.

**- Düşmənin saxta xəbərlərinin qarşısını necə almaq lazımdır?**

- Bu, az qala, qeyri-mümkündür. Daha məqsədəuyğunu “fake news”lara hazır olmaqdır. Fakt, yoxlama və etibarlı mənbələrə istinad yolu ilə saxta xəbərləri ifşa etmək müasir medianın bir hissəsidir. Bunun üçün fokuslanmış ağıla, sürətli reaksiyaya ehtiyac var. Sözügedən məsələ təxminən dalğaya qarşı sədd tikməyə bənzəyir. Professionalların diqqətli olması səddin möhkəmliyi deməkdir. Bu isə dalğanın, yəni dezinformasiyanın təsir gücünü azaldacaq.

**- Belə vəziyyətlərdə ictimai rəy necə yaradılmalıdır?**

- Yaxşı sualdır. İctimai rəy cəmiyyət həyatında reaksiyaya səbəb olan insanlar, hadisələr vasitəsilə formalaşdırılır. Ünsiyyət isə onun DNT-sidir. Məsələn, Prezident İlham Əliyevin müsahibələri və düşmənlərin Gəncədə törətdikləri dağıntılar məhz bu baxımdan xarakterik idi. Əslində Azərbaycanda ictimai rəy yaratmağa ehtiyac yox idi. Onsuz da hər kəs vahid fikirdə idi. Lakin xaricdə müəyyən fikir haçalanmasının olduğunu deməliyik. Bax, məhz bu məqamda ictimai şüuru formalaşdırmağa ehtiyac olur. Ölkənizdə yaşadığım illərdə tez-tez deyirdim ki, Azərbaycanın nüfuzu yalnız onun hekayəsini necə danışmaqdan asılıdır. Və bu hekayə beynəlmiləl dillərdən birində, məsələn, ingiliscə təqdim edilməlidir. Fikrimcə, mən bu istiqamətdə Azərbaycanda müəyyən işlər görə bilmişəm.

**- 44 günlük savaş dövründə jurnalistlərimizin fəaliyyəti barədə nə deyə bilərsiniz? Bizim üstünlüklərimiz və qüsurlarımız nələr idi?**

- Azərbaycandilli medianın fəaliyyəti haqqında tutarlı bir fikir söyləyə bilmərəm. Amma ölkənizdə xeyli jurnalist, o cümlədən redaktor yetişdirmişəm. Onları özümə dost hesab edirəm. Sadiq, istedadlı və çalışqandırlar. Cəmiyyət belə jurnalistlərlə fəxr edə bilər. Müharibə dövründə Azərbaycandan hazırlanan ingilis dilindəki reportajları oxuyurdum. Həmçinin beynəlxalq KİV-in fəaliyyətini izləyirdim. Bəzi hallarda tərcümə qüsurlarının olduğunu etiraf etməliyəm.

**- Oxşar vəziyyətlərdə ilk növbədə jurnalist olmaq lazımdır, yoxsa vətəndaş?**

- Vətəndaş...Bu, peşəkarlığın bir hissəsidir. Bir jurnalist və redaktor kimi şəxsi fikrim dəyişməzdir: Jurnalistika güc tətbiqidir. Yaxşı jurnalist isə həmin güc vasitəsilə aid olduğu cəmiyyətə müsbət təsir göstərməyə çalışmalıdır. Məsələn, mən qayğı göstərdiyim üçün jurnalist oldum. Ümumiyyətlə, mən jurnalist etikasının vətəndaş kimi məsuliyyətimizə əsaslandığına inanıram. Biz jurnalist kimi obyektiv və peşəkar olmağımızla yanaşı, həm də insani dəyərlərimizə sadiqliyimizi nümayiş etdirməliyik. Dediyim kimi, bizim öz işimiz var. Və bu işi görərkən kim olduğumuzu, niyə bu işlə məşğul olduğumuzu və ən əsası tərəf müqabilimiz- auditoriyanı unutmamalıyıq. Yalnız bu halda bizə inana, etibar edə bilərlər. Əks halda yox.

> “Mən jurnalist etikasının vətəndaş kimi məsuliyyətimizə əsaslandığına inanıram”

**- Avropada Qarabağ həqiqətlərinə münasibət necədir?**

- Azərbaycanda media proqramları apardığım on il ərzində otuzdan çox xarici ölkədə oldum. Həmişə sizin ölkənin həqiqətlərini müdafiə etdim. Təəssüf ki, son illərədək bir çoxları Azərbaycanı xəritədə göstərə bilmirdilər. Lakin ard-arda keçirilən idman yarışları və xüsusilə Qarabağ müharibəsindəki zəfər nəticəsində dünya KİV-nin manşetlərinə çıxdınız. Bu, rəsmi Bakı üçün böyük fürsətdir. Fikrimcə, indi regional iqtisadiyyat qurmağın vaxtıdır. Dünya Azərbaycanın sülh və sabitlik istədiyini başa düşməlidir. Bunun üçün isə xüsusilə jurnalistlər beynəlxalq ictimaiyyətə nüfuz etməyi bacarmalıdırlar. Unutmayın, müharibədə qalib gələn silahlar, sülhü təmin edən isə ünsiyyətdir.

**Kənan Novruzov**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub

# Azərbaycan Dövlət Pedaqoji Universitetinin 100 illik yubileyi

## *ADPU-nun Ümumi pedaqogika kafedrası: dünən və bu gün*

Azərbaycanda pedaqoji və elmi-pedaqoji kadr hazırlığında Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ümumi pedaqogika kafedrasının xüsusi yeri var. Pedaqogika kafedrası müstəqil kafedra kimi 1930-cu ildə - Azərbaycan Pedaqoji İnstitutu yenidən təşkil edilərkən yaradılmışdır.

Bir professor (B.B.Komarovski), dörd dosent (Əşrəf Hacıyev, Mikayıl Rəhimli, Əhməd Kərədi, Zəkuzadə), yeddi assistent (Mehdi Mehdizadə, Əhməd Seyidov, Əbdülkərim Əfəndiyev, İbrahim Əfəndiyev, Qənbər Əsgərov, Rəcəb Əfəndiyev, Gülrux Qədimbəyova) və bir laborantla (Məmmədsəlim Tahirli) fəaliyyətə başlayan pedaqogika kafedrası ildən-ilə inkişaf etmiş, respublikada pedaqoji biliyin mərkəzinə çevrilmişdir. Geniş və hərtərəfli fəaliyyəti ilə fərqlənən kafedraya ilk vaxtlar dos.M.Rəhimli (1931-1937), sonralar dos.N.Asatur (1927-1942), prof.Ə.Seyidov (1943-1950 və 1956-1974), prof.M.Mehdizadə (1950-1951), prof.M.Muradxanov (1951-1956), 1974-1977-ci illərdə professorlar B.Əhmədov, N.Kazımov, S.Şəfiyev rəhbərlik etmişdir.

1932-cü ildə V.İ.Lenin adına APİ-də aspirantura şöbəsi açılmışdı və aspirantlardan 12 nəfəri pedaqogika ixtisası üzrə idi.

XX əsrin 30-40-cı illərində pedaqogika elmi sahəsində çalışmış tanınmış pedaqoq və psixoloqlar öz elmi-pedaqoji fəaliyyətlərini bu kafedrada davam etdirmişlər. İsmayıl Qaryağdı, Mövsüm İsmayılzadə, N.Prunis (1932), Əli İsgəndərzadə (1933), Saleh Xəlilov (1934), Seyid Əliyev (1934), Dilrubə Mustafayeva, Zümrüd Axundova (1936), Məmməd Əlizadə (1936), İsrafil Hacıyev (1937), Surxay Hacıyev (1939), Əmir Tağıyev (1940) və başqalarının fəaliyyəti kafedra ilə daha sıx bağlı olmuşdur.

1943-cü ildə Əhməd Seyidov-Pedaqogika kafedrasının müdiri təyin edildi. O, 1939-ci ildə namizədlik, 1947-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdi. Onun elmlər doktoru elmi dərəcəsi alması pedaqogika elmində hadisəyə çevrilmişdi. Belə ki, o, ilk milli pedaqoji elmlər doktoru idi.

Ötən əsrin 50-ci illərində pedaqogika kafedrası elmi-pedaqoji kadr hazırlığı sahəsində fəaliyyətini genişləndirdi, tərkibi kəmiyyət və keyfiyyətcə yüksəldi. Həmin illərdə S.Babayeva (1951), H.Hacıyev (1952), Ə.Tağıyev (1952), T.Əfəndiyev (1954), H.Əhmədov, Ə.Yaqubi (1958), V.Mustafazadə, Ə.Hüseynova (1959) və başqaları pedaqogika kafedrasında elmi-pedaqoji fəaliyyətə başladılar. Həmin dövrdə kafedranın gənc kadrlarından N.Mustafayeva (1949), A.Kərimov (1953), T.Əfəndiyev (1954), İ.Vəlixanlı, B.Axundov (1955), N.Kazımov, M.Kazımov (1957), H.Əhmədov (1958), M.Məmmədov, Q.Məmmədov (1959), eyni zamanda Ə.Tağıyev (1954), Ə.Yaqubi (1955), V.Mustafazadə (1955) pedaqogika sahəsində tədqiqatlarını başa çatdıraraq namizədlik dissertasiyaları müdafiə etdilər.

Ümumi pedaqogika kafedrasının dosenti M.Mehdizadə1957-ci ildəMoskvada doktorluq dissertasiyası müdafiə etdi. 1967-ci ildə SSRİ PEA-nın həqiqi üzvü seçildi.

1969-cu ildə Azərbaycan KP MK-nın avqust plenumunda Ulu öndər Heydər Əliyevin tarixi məruzəsində irəli sürülən tələblərə uyğun keçən əsrin 60-70-ci illərində elmi və elmi-pedaqoji kadrların hazırlanmasının müxtəlif problemləri ilə əlaqədar ölkədə mühüm qərarlar qəbul edilir. Burada aspirantura sistemində elmi kadrların hazırlanmasına dissertasiya işlərinin müdafiəsinə tələblərin artırılması ön plana çəkilir.

Ümumi pedaqogika kafedrasında da bu tələblərə əməl edilmiş, aspiranturaya müsabiqə yolu ilə, ali məktəbləri fərqlənmə diplomu ilə başa vurmuş, tədqiqatçılıq bacarığına malik elmi eridusiyalı gənclərin qəbul edilməsinə üstünlük verilmişdir. Ümumi pedaqogika kafedrası üzrə aspirantura hazırlığı keçən Y.Talıbov (1962), İ.Musayev, Ə.Məmmədov, P.Saleh (1964), Ə.Qədimbəyova, Ə.Əhmədov, A.İsmayılov, S.Məcidov, A.Hüseynzadə, S.Şəfiyev, B.Abdulayev, S.Axundov (1965), H.Novruzov, N.Rüstəmova (1966) və başqaları müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışlar.

1960-80-ci illərdə Ümumi pedaqogika kafedrası yeni elmi qüvvələrlə gücləndirildi, onun potensialı yüksəldildi. 1964-1965-ci tədris ilində kafedrada 12 nəfər (1 professor, 5 dosent, 6 b/m) işlədiyi halda 1970-ci illərdə əməkdaşların sayı xeyli artdı. Bu illərdə S.Pəncəli, İ.Musayev, B.Abdullayev, A.İsmayılov, X.Mehdizadə, H.Novruzov, Ə.Əhmədov, Y.Talıbov, S.Quluyev, M.Babayev, B.Bəşirov, Z.Pulatova, S.İbrahimova, S.Nəbiyev, N.Ağayeva, Ş.Səmədova, Y.Atakişiyev, H.Əhmədov, İ.İsayev və b. pedaqogika kafedrasında müəllimlik fəaliyyətinə başladılar. Bu da 70-ci illərdə respublikada pedaqogika elminin inkişafına kömək etməklə yanaşı yüksək ixtisaslı kadrların hazırlanmasına şərait yaratdı. Nəticədə kafedra üzrə aspirantura hazırlığı keçmiş S.Quluyev (1968), Ə.Hüseynova (1969), Ə.Ağayev (1970), S.Nəbiyev (1971), M.Babayev (1972), M.Həsənov, X.Fətəliyev, Ə.Cəlilov, A.Eminov (1973), İ.İsayev (1974), S.Orucov (1975) və b. namizədlik dissertasiyalarını müdafiə etdilər.

70-ci illər Ümumi pedaqogika kafedrasının elmi həyatında doktorluq dissertasiyalarının müdafiəsi ilə fərqlənir. Həmin illərdə



H.Əhmədov (1972), A.Kərimov (1973), Y.Talıbov (1975) doktorluq dissertasiyası müdafiə etdilər.

1970-1980-ci illərdə Ümumi pedaqogika kafedrasının nəzdində ictimai əsaslarla "Ali məktəb pedaqogikası" və 1975-2000-ci illərdə xüsusi ştat vahidi olan "Şagirdlərin peşəyönümü" elmi-tədqiqat laboratoriyaları fəaliyyət göstərmişdir.

SSRİ Nazirlər Soveti yanında AAK-nın 5 avqust 1986-cı il tarixli 398 saylı əmrilə APİ-də yaradılan, 2 mart 1989-cu il 45 saylı əmrilə yenidən təsdiq olunan pedaqoji elmlər üzrə ixtisaslaşdırılmış Dissertasiya şurasında (sədr: Azərbaycan EA-nın müxbir üzvü, professor A.Qurbanov - rektor, elmi katib: dos. İ.İsayev kafedranın əməkdaşı)həmin illərdə müdafiə olunan 92 dissertasiyanın 55-i pedaqogikanın nəzəriyyəsi və tarixinə aid idi ki, bunların hamısı Ümumi pedaqogika kafedrasında müzakirə edilərək müdafiəyə buraxılmışdır. Müdafiə edənlərdən M.İl-yasov, T.Məmmədov, S.Qurbanova, V.Zərbəliyev, B.Nəsirov, X.Mehdizadə, H.Bayramov, S.Orucova, F.Rüstəmov, Ə.Məhərrəmov, N.Ağabəyova, K.Məcidov, Ə.Sarıyev məhz Ümumi pedaqogika kafedrasının əməkdaşları idi.

Həmin illərdə Ümumi edaqogika kafedrası Zaqafqaziya, Orta Asiya respublikaları və Şimali Qafqaz üçün elmi-pedaqoji kadr hazırlığında mühüm elmi mərkəz rolu oynamışdır.

1978-2013-cü illərdə kafedraya SSRİ PEA-nın müxbir üzvü, Beynəlxalq Pedaqoji Elmlər Akademiyasının həqiqi üzvü, Rusiya Təhsil Akademiyasının xarici üzvü, əməkdar ali məktəb işçisi, pedaqoji elmlər doktoru professor Hüseyn Əhmədov rəhbərlik etmişdir.

Azərbaycan müstəqillik qazandıqdan sonra kafedranın elmi potensialı xeyli yüksəlmiş, kafedra üzvlərindən Fərrux Rüstəmov (2003), Müseyib İlyasov (2014), doktorluq, Ş.Azadəliyeva (1992), K.R.Quliyeva (1997),S.Hacıyeva (2005), G.Qocayeva (2011) namizədlik dissertasiyası müdafiə etmişdir. Kafedra əməkdaşlarından F.Rüstəmov Əməkdar elm xadimi, Ə.Paşayev Əməkdar müəllim fəxri adına, İramin İsayev professor elmi adına layiq görülmüşdür.

Ötən illər ərzində Ümumi pedaqogika kafedrasının əməkdaşlarının fəaliyyəti məqsədyönlü olmuş, metodiki xarakterli monoqrafiya, kitab və kitabçalar, elmi məqalələr hazırlamış, proqramlar, dərsliklər tərtib etmişlər.

Pedaqogika tarixindən ilk dərs vəsaitini pedaqogika kafedrasının dosenti S. Xəlilov hazırlamışdır. Sonra Türkiyədən dəvət olunmuşX.Fikrət tərəfindən "Tərbiyə və tədris tarixi" adlı iki hissədən ibarət dərs vəsaiti 1924 və 1926-cı illərdə çap olunmuşdur. 1941, 1942, 1958-ci illərdə M.Mehdizadə, S.Xəlilov, D.Mustafayeva tərəfindən 2 hissədən ibarət "Pedaqogika" dərs vəsaiti çap olunmuş, prof.M.Muradxanovun rəhbərliyi altında 1964-cü ildə "Pedaqogika" dərs vəsaiti 1958-1959-cu illərdə Ə.Seyidov və Ə.Tağıyev tərəfindən "Pedaqogika tarixi", 1969-cu ildə Ə.Seyidovun "Pedaqogika tarixi" kitabları çap olunmuşdur.

1990-2015-ci illərdə yeni tələblərə uyğun dərslik və dərs vəsaitlərinin tərtibi davam etdirilmişdir. H.Əhmədovun "Pedaqogika tarixi kursundan mühazirələr" (1987), H.Əhmədovun "İz istorii pedaqoqiki Azerbaydjana" (I-II-III hissə; I hissə İ.İsayevlə birlikdə) (1991, 1993, 1995), "Azərbaycanda məktəb və pedaqoji fikir tarixi" (2014) İ.Musayevin "Pedaqogikanın ümumi əsasları" (1992), B.Abdullayevin "Didaktika" (1997), İ.İsayevin "Pedaqogika" (1993, şərikli, 2003, 2006) kitabları çap olunmuşdur.Ə.Paşayev, F.Rüstəmovun "Pedaqogika" (2002), F.Rüstəmovun "Pedaqogika tarixi" (2006), "Ali məktəb pedaqogikası", "Şərq pedaqogika tarixi", "Qərb pedaqogika tarixi", "Yeni dövrün pedaqogika tarixi", Ən yeni dövrün pedaqogika tarixi" dərslikləri, M.İlyasovun "Didaktika" (2015) dərs vəsaitləri də məhz həmin illərin məhsuludur.

Son illərdə "A.Səhhət və xalq maarifi", "Pedaqoji irsimizdən: M.V.Vidadidən H.K.Sanılıyadək" (prof.İ.İsayev), "Pedaqogika" (prof.R.Hüseynzadə və F.İbrahimov), "Azərbaycanca-rusca pedaqoji-psixoloji terminlər lüğəti" (dos.H.Cəfərov),"Təhsilin sosiomədəni problemləri"(dos.M.Nəzərov), "Üzeyir Hacıbəyovun pedaqoji görüşləri" (dos.S.Orucova), "Kurikulum bələdçisi" (dos.K.Quliyeva), "Təhsil- tərbiyənin müasir problemləri", "Azərbaycanda ali pedaqoji təhsilin təşəkkülü və inkişafı"(dos.Ş.Azadəliyeva), "Tədrisdə pedaqoji drama" (dos.Ə.İsmayılxanova)adlı dərslik və dərs vəsaitləri nəşr olunmuşdur.

2013-cü ildən Ümumi pedaqogika kafedrasına professor İramin İsayev rəhbərlik edir. Ötən illər ərzində kafedranın elmi potensialının yüksəldilməsinə, doktorantura yolu ilə yüksək ixtisaslı elmi-pedaqoji kadrların hazırlanmasına diqqət artırılmışdır.Dos.M.Nəzərov (2018) fəlsəfə və dos. Ş.Azadəliyeva (2018) pedaqogika üzrə elmlər doktoru dissertasiyası müdafiə etmişlər. dos.K.Quliyeva və dos.E.Hüseynova elmlər doktoru proqramı üzrətədqiqatlarını davam etdirirlər. Kafedra üzrə elmlər doktoru proqramı üzrə 3,fəlsəfə doktoru proqramı üzrə 7 doktorant və 3 dissertant elmi araşdırmalarını davam etdirirlər.

Kafedra əməkdaşları daim universitetimizin həyatında yaxından iştirak etmiş, müxtəlif vəzifələr daşımışlar. Bu ənənə indi də davam etdirilir. Pedaqogika kafedrasının yetirməsi Mehdi Mehdizadə 23 il Azərbaycan Maarif naziri olmuşdur. Prof.İ.İsayev 1986-1994-cü illərdə Dissertasiya Şurasının Elmi katibi, dekan müavini, dekan vəzifələrini icra etmiş, 2009-2016-cı illərdə Universitetimizdə fəaliyyət göstərən Dissertasiya Şurasının üzvü olmuşdur. Dos.K.Qu-liyeva həmin Dissertasiya Şurasının elmi katibi, dos.H.Cəfərov isə üzvü, dos.S.Qurbanova həmin Şuranın nəzdində Elmi Seminarın katibi, Ş.Azadəliyeva və b/m G.Qocayeva isə seminarın üzvü kimi fəaliyyət göstərmişlər. Hazırda prof.İ.İsayev, dos.M.Həsənov, dos.K.Quliyeva və dos.S.QurbanovaTarix və Coğrafiya fakültəsi Elmi Şurasının üzvüdürlər. Kafedranın yetirmələrindən Əməkdar elm xadimi, professor F.Rüstəmov ADPU-da fəaliyyət göstərən pedaqoji elmlər üzrə ixtisaslaşdırılmış Dissertasiya Şurasının həmsədri (2009-2016), Pedaqoji fakültənin dekanı (2007-2015) olub. Hazırda İbtidai təhsil fakültəsinin dekanıdır. Prof.M.İlyasov isəMəktəbəqədər təhsilin pedaqogika və metodikası kafedrasının müdiridir.

Son illərdə Ümumi pedaqogika kafedrasının əməkdaşları pedaqogikanın aktual problemlərinə həsr edilmiş onlarla beynəlxalq və respublika səviyyəli konfranslarda məruzələr etmiş, peşəkarlıqlarını artırmaq məqsədi treninqlərə qoşulmuş, xeyli elmi- metodikiəsərlər nəşr etdirmiş, 35-dən çox proqramın çapına nail olunmuşdur. Kafedrada həyata keçirilən bu tədbirlər ADPU-nun rektoru, professor Cəfər Cəfərovun rəhbərliyi ilə universitetimizdə pedaqoji və elmi-pedaqoji kadr hazırlığı sahəsində aparılan ciddi məzmun islahatlarının tərkib hissəsi olmaqla daha keyfiyyətli müəllim kadrları hazırlığına xidmət edir.

**Fərrux Rüstəmov**
**pedaqoji elmlər doktoru, professor, Əməkdar elm xadimi**

**İramin İsayev pedaqogika üzrə fəlsəfə doktoru, professor**

**Kəmalə Quliyeva pedaqogika üzrə fəlsəfə doktoru, dosent**

# Vay bu şəhərin halına

*Ağac terrorçuları, acgöz məmurlar yaşıllıqlara qənim kəsiliblər*





"Bəxt üzüyü" filmində veteran Tanrıbəy Moşuya yalvarır ki, ağaclar istidən yanır, dur, onları sula. Havayı iş görmək istəməyən Moşu isə soruşur ki, bu ağaclar meyvə gətirir, bar verirlər? Veteran dayının "a bala, bunlar şam ağaclarıdı, onların meyvəsi olmur".

Moşu da "meyvəsiz ağacı niyə sulayım, maa nə xeyri var?!" deyib, o boyda veteranın sözünü yerə salır. Paytaxtda yaşıllıq ərazilərinin məhv edilməsi, ağacların bilərəkdən, məqsədli şəkildə qırğına verilməsini filmdəki acı zarafatın real günümüzdə təcəssümüdü.

Bakıda yaşıllıqların məhv edilməsindən çox deyilir, çox yazılır. Sosial şəbəkərlərdə də fotolar yerləşdirilir. Amma məmur ordusu moşusayağı davranmağındadır: "bir ağacdan ki, cibimizə xeyir gəlmir, o nəyimizə gərəkdir?! Bu dağıdıcı təfəkkürlə də yaşlıqların məhvini gerçəkləşdirirlər.

> "Bakıda 1980-ci illərin sonunda 15 min hektar yaşıllıq ərazisi vardı. İndi isə 7 min hektar civarında qalıb"

Hazırda paytaxtın Nizami rayonu ərazisində məhvetmə kampaniyası sürət götürüb. Babək prospekti boyunca "Xalqlar dostluğu" metrostansiyasınadək, burada da "Laçın" Ticarət Mərkəzinə qədər olan məhz yol kənarındakı yaşıllıq ərazilərin daşlarla örtülməsi işi aparılır. Piyadalar üçün rahat keçidləri anladıq, amma yaşıllıq zolağındakı ağacların ətrafı və əslində yaşıllıq sahəsi olan əraziyə niyə daş düzülməlidir? Sual ritorikdir. Çünki cavabı bəllidir. Ona görə ki, daş düzülən ərazilər obyekt kimi satışa çıxarılır. "Xalqlar dostluğu" metrostansiyasından "Laçın" Ticarət Mərkəzinə uzanan yolda yaşıllıq kimi qalmalı olan, lakin daşlar altında artıq basdırılmış ərazidə hər gün bir obyekt, hər saat bir ticarət "toçka"sı boy göstərməkdədi. Böyük ehtimalla ərazi icra hakimiyyəti tərəfindən satışa çıxarılır. Kvadratına görə haqqını ödəyib yerə sahib olanlar piştaxtalarını artıq quraşdırıblar. Ağacların əhatəsində yaxın günlərdə böyük küçə bazarının şahidi olacağıq. Piyadalar üçün də ortada kiçik bir cığır saxlayacaqlar. Piyadalar hər dəfə bu yolla hərəkət etdikcə sağsolları ticarət köşkləri, piştaxtalar olacaq. Hər cür əşya, geyim, ərzaq satacaqlar orda. Kişi-qadın alt paltarından, corabdan tutmuş, ayaqqabıya, çantaya qədər. Tuman-coraba nə qədər aludə imiş bu "millət"?!. İnsanlar üçün gəlir sahələri yaratmaq, ticarət etmək imkanı vermək, əlbəttə müsbətdir. Amma niyə məhz yaşıllıqların və ağacların hesabına. Yaşıllıq və ağaclar bizə ticarətlə qazanılmayan nemət - təmiz havanı verir! Onu





pulla almaq mümkün deyil. Amma nadanlıqlarından qənim kəsilirlər təbiətə.

Problemlə bağlı "Şərq"ə danışan sosioloq Elçin Bayramlı qeyd etdi ki, sovet dövründə Bakı ən az yaşıllıq sahəsi olan şəhərlər sırasında idi. İndi isə vəziyyət kritik həddə çatıb:

- Ölkə başçısı cənab İlham Əliyev və birinci vitse-prezident Mehriban xanım Əliyeva ağacəkmə kampaniyalarında iştirak edir, şəhərin yaşıllaşdırılmasına önəm verirlər, amma bəzi acgöz məmurlar ağacları kəsib, yaşıllıq əraziləri məhv edib obyekt yeri hazırlayır və satırlar. Bunlara daha hansı sözlər deyilməlidir ki, təsiri olsun?! Mən onları cinayətkar da adlandırıram, quldur da adlandırıram, amma görürəm ki, təsiri yoxdur. Deməli, tənqiddən təhqirə keçmək lazımdır. Bu insanlar acgözdürlər, soyğunçudurlar və terrorçudurlar - ağac terrorçuları. Bakıda 1980-ci illərin sonunda 15 min hektar yaşıllıq ərazisi vardı. İndi isə 7 min hektar civarında qalıb. İki dəfə azalıb yaşıllıq ərazisi. Yaşıllıq ərazilər 2 dəfə azalıb, əhalinin sayı isə 2 dəfə artıbsa, deməli, vəziyyət dördqat ağırlaşıb. Yaşıllıqların məhv edilməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin gözü qarşısında baş verir. Hansısa halda əhali səs-küy qaldırır, mediada məsələ işıqlandırılır, bundan sonra Ekologiya Nazirliyi müdaxilə edir, kimisə cərimələyirlər, bununla da iş bitir. Kəsilən ağac kəsildi, yaşıllıq da məhv edildi. Sonra da baxırsan ki, məhv edilən yaşıllıq ərazisində ya bina tikilib, ya da bir obyekt. Əgər nazirlik bu ağac qatilləri ilə bacarmırsa, açıq etiraf etsin. Vətəndaş da bilsin ki, ağac qatilləri kimlərdir. Dövlət başçısı onlarla bağlı ölçü götürər. 10-15 il əvvəl paytaxtda mövcud olmuş böyük yaşıllıq zonaları dəfələrlə azalıb və bu gedişlə 1-2 ilə tamamilə yoxa çıxacaq. Məmurlar, icra hakimiyyətləri yaşıllıq ərazilərə rahat qazanc mənbəyi kimi baxır. Bilərəkdən, qəsdlə ağacların dibinə kislota tökürlər, səki daşlarıyla, ya da mərmər, tamet daşlarla əhatələyirlər, qısa zamanda ağaclar quruyur, sonra o əraziləri boş sahə kimi sənədləşdirir və satırlar. "Boş sahə"ni ələ keçirmək asandır. Yol kənarlarında, səkilərdə, hətta parkların ərazisində az bir hissədə yaşıllıq salır, böyük hissəni ticarət obyektləri üçün hazırlayırlar. Dediyiniz həmin "Xalqlar dostluğu" metrostansiyasından "Neftçilər" metrostansiyasınadək yolun hər iki tərəfində böyük yaşıllıq zonaları vardı. İndi baxaq, nə görürük; ticarət obyektləri, mebel mağazaları, restoran-kafelər, köşklər... Yüksəklikdən Bakıya baxanda sanki daş yığınıdı. Bakı "daz" şəhərə çevrilib.

E.Bayramlı yaşıllıq sahələrinin azalmasında "Azərsu"nun da məsuliyyət daşıdığını bildirdi:

- Bakının bir çox yaşayış binalarının həyətlərində su kranları vardı. Sakinlər bu su kranlarından istifadə etməklə binaların həyətindəki ağacları, yaşıllığı, gül-çiçəyi sulayırdılar. Amma "Azərsu" su kranlarını ləğv etdi, su borularını bağladı. Ağaclar da susuz qalıb qurudular, məhv oldular. Ümumi istifadədə olan su kranına sayğac quraşdırılırsa, onun ödənişini heç bir idarə, təşkilat üzərinə götürmək istəmir ki, pul yoxdur. Nəticədə yaşıllıq ərazilər məhv olur, ağaclar da quruyur. Məmurlar üçün də yeni-yeni gəlir mənbələri yaranır. Ərazilər satılırlar. Yaşayış masssivlərinin həyətlərinə, yol kənarlarına, səkilərə bir reyd keçirsinlər, görsünlər yaşıllıq əraziləri geyim mağazaları, marketlər, ticarət köşkləri, təndirxanalar tərəfindən necə zəbt edilib. Piyadaların gediş-gəlişi üçün səki qalmayıb şəhərdə. Məmurlar qanundan qorxmur. Harda "boş ərazi" gördülər, orda bir "toçka" yaradırlar. Yaşıllıqları məhv edir, insanların havasını oğurlayırlar.

**Məlahət Rzayeva**

## 20 qəpik də artdı

Siqaretin bahalaşmasının heç bir iqtisadi əsası yoxdur



Dünəndən etibarən Azərbaycanda bütün növ siqaretlərin qiyməti artırılıb. Ötən günlə müqayisədə qiymətlərdə 20 qəpik artım var.

Pərakəndə siqaret satıcıları qiymət artımını belə dəyərləndiriblər: "Siqaretin topdan satışı ilə məşğul olan firmalar bu gündən bizə malları yeni qiymətlərlə göndərib. Qiymət artımı bütün siqaret markalarında olub".

**Bahalaşmaya dair fikirlərini "Şərq"lə bölüşən iqtisadçı Ramil Quliyev bildirib ki, siqaretin qiymət artımında iqtisadi cəhətdən heç bir əsaslandırma yoxdur:** "Suyun qiymətinin artması da bu kontekstdə olan məsələlərdən biridir. Bahalaşma sadəcə olaraq dövlət büdcəsinə əlavə vəsaitin cəlb edilməsi ilə bağlı ola bilər. Siqaretin qiymət artımının başqa bir əsası yoxdur".

**Yeganə Bayramova**

## "Sosial ədalətsizlik var"

Adəm Məmmədov: "Azadlığa çıxmış şəxslər işlə təmin edilmir"



Azadlığa çıxdıqdan sonra təkrar cinayətlər törətmiş şəxslərin sayı olduqca çoxdur. Bu problemin həlli isə dövlətin, hüquq mühafizə orqanlarının və cəmiyyətin önündə dayanan vacib məsələlərdən biridir.

Keçmiş məhkumlar azadlığa çıxdıqdan sonra bəzən işsiz qalır, yaşamaq üçün maddi vəsaitləri olmur, onlara sosial yardım göstərilmir. Nəticə etibarilə belə insanlar yenidən cinayət yolunu tuturlar.

**Tanınmış hüquqşünas, vəkil Adəm Məmmədov bununla bağlı "Şərq"ə danışarkən qeyd edib ki, hazırda sosial problemlər üzündən normal insanlar belə cinayət törədirlər, o ki qaldı keçmiş məhbuslar bunu etməsin:** "Keçmiş məhkumların cəmiyyətə inteqrasiyası haqqında qanun var. Lakin bu qanun real tətbiq olunmur. Azadlığa çıxmış şəxslər işlə təmin edilmir. Nəticədə maddi cəhətdən bir çox problemlərlə üzləşirlər. Ümumiyyətlə, cəmiyyətdə normal insanların belə sosial təminatı heç də yaxşı deyil. Camaat güclə dolanır, maddiyyat üzündən çox əziyyət çəkir. Bu səbəblər ucbatından hətta adi insanın belə cinayət törətmək riski var. Cəmiyyətdə sosial ədalətsizlik var. İş yerləri çox azdır. Sosial problemlərə görə cinayətlər çoxalır. Məhkum olunmuş insanları da daha sonra işə götürmürlər, onlara güvənmirlər. Nəticə etibarilə onu demək olar ki, bizdəki vəziyyət məhkumların islah olunması üçün uyğun deyil".

**Aytac Ali**

## Təəssüf ki, pis ənənələr yaşayır

Qız qaçırma əslində adam oğurluğu sayılır

Azərbaycan Dövlət Aqrar Universitetinin tələbəsi Gülər Mirzəyeva Samux rayon sakini, Vüsal Saadov və iki tanışı tərəfindən məcburi qaçırılıb.

Gəncə şəhər Baş Polis İdarəsinin və Nizami Rayon Polis İdarəsinin birlikdə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində G.Mirzəyeva tapılaraq ailəsinə təhvil verilib. Faktla bağlı Nizami RPİ-də araşdırmalar davam etdirilir.

**Hadisəni "Şərq"ə dəyərləndirən hüquqşünas İradə Cavadova müasir dövrdə qız qaçırtma üsulunun qalmasına təəssüf etdiyini söyləyib:** "Bəzi Şərq ölkələrində bu kimi hallara rast gəlirik. Azərbaycanda da, qardaş Türkiyədə də belə olaylar baş verir. Qız qaçırma keçmişdə olub. Əslində isə bu, adam oğurluğudur. Həmin əmələ görə insanlar cinayət məsuliyyətinə cəlb olunurlar. Bildiyim qədəri ilə Azərbaycanda bununla bağlı tədbirlər görülür. Həmçinin maarifləndirmə işləri də gücləndirilməlidir. Kütləvi informasiya vasitələrində, efirlərdə həmin şəxsləri nələr gözlədiyi, hansı cinayət məsuliyyəti daşıdığı izah olunmalıdır".

**Samirə Ərəblinski**

# Feminizm ailə dəyərlərini tamam sıradan çıxarır



## Ülviyyə Həmzəyeva: "Milli kimliyimizə zərər verilməsinə yol verməməliyik"

*Artıq bir neçə ildir ki, 8 mart Beynəlxalq Qadınlar günündə Bakının mərkəzində bir qrup feminist aksiya keçirir. Martın 8-də yenə bu ənənəyə sadiq qalaraq, feministlər Fəvvarələr meydanında qadın hüquqlarına diqqət çəkmək üçün icazəsiz aksiya keçirdilər.*

Bakı Şəhər İcra Hakimiyyəti əvvəlcədən bu aksiyanın keçirilməsinə icazə verməmişdi. Lakin feministlər buna məhəl qoymayıb, aksiyalarını həyata keçirdilər. Aksiya zamanı feministlər "Qadın qətlləri siyasidir!", "Qadın kimi savaş!" və sairə bu kimi şüarlar səsləndirərək, "İstanbul konvensiyası"nın qəbul edilməsini, qadınlara qarşı baş verən cinayətlərin ədalətli araşdırılmasını, qadınlara qarşı zorakılığın qarşısının alınması üçün effektiv tədbirlərin görülməsini, qadınların şəbəkələşməsi, birləşməsi və mübarizəsi üçün bütün maneələrin aradan qaldırılmasını tələb ediblər. Polis bir neçə aksiya iştirakçısını saxlayıb. Lakin sonradan Daxili İşlər Nazirliyi açıqlama yayaraq bildirdi ki, aksiyaya cəhd zamanı saxlanan olmayıb, "qabaqcadan edilmiş xəbərdarlığa məhəl qoymayaraq, qanunsuz aksiyaya cəhd edən şəxslər ərazidən uzaqlaşdırılıb.

8 mart günü keçirilən aksiya bu dəfə də cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. Əksinə, bundan əvvəlki illərdə olduğu kimi, yenə də səsləndirilən şüarlar böyük əksəriyyətdə qıcıq doğurdu.

Milli Məclisin iclasında millət vəkili Tahir Kərimli "İstanbul konvensiyası"nın qəbulunun yolverilməz olduğunu söyləyib.

Parlament üzvü Azərbaycanda "İstanbul konvensiyası"nın tərəfdarı olan feministləri "üzdəniraq" adlandırıb: "Onlar Azərbaycanın ailə dəyərlərini dağıtmaq istəyirlər. Fikir verin, İndoneziyanı misal gətirmirlər, İndoneziyada ana familiyası əsas götürülür, qadına çox böyük dəyər verilir. Amma bunlar Qərbə üz tuturlar, çünki orada məsələ fərqlidir".

**Millət vəkili Ülviyyə Həmzəyeva "Şərq"ə bildirib ki, Azərbaycan qadınları tarix boyu torpaqlarımızın toxunulmazlığı, adət-ənənələrimizin, mədəniyyətimizin, dövlətçiliyimizin qorunması və möhkəmləndirilməsi uğrunda kişilərlə bərabər mübarizə aparıb:** "Qadınlarımız dünya tarixində hünər, cəsarət, qorxmazlıq, vətənpərvərlik, müdriklik nümunəsi olub. Tarixdə Azərbaycan qadını müdrik, vətənə, torpağa sədaqətli, cəsur və qorxmaz olmaqla bərabər, bir çox çətin vəziyyətlərdə düzgün yol seçməyi bacarıb. Azərbaycan qadını uzaqgörən siyasət yeridərək, kişiləri də bu yola istiqamətləndirib. Ölkə və eləcə də dünya tarixində ədəbiyyat, mədəniyyət, elm sahələrində yer tutan və ictimai xadim olan qadınlarımız vardır.

Bu gün müstəqil Azərbaycanda qadınların cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində bütün dünyada yüksək qiymətləndirilir".

**Xanım deputat vurğulayıb ki, Azərbaycan qadınının həm ailədə, həm işdə, həm də cəmiyyətdəki layiqli mövqeyi dövlətimizin uğurlu, xoşbəxt sabahına, xalqımızın firavanlığına ən ciddi təminatlardan biridir:** "Qadınlarımızın bu şərəfli missiyalarını gerçəkləşdirmələri üçün Azərbaycan hökuməti gender bərabərliyinin təmin edilməsi üçün bütün gərəkən addımları atır. Prezident İlham Əliyevin 2006-cı il 6 fevral tarixli Fərmanı ilə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi yaradılıb. Həmin ildə "Gender - kişi və qadınların bərabərliyi təminatları haqqında" qanunun imzalanması, kişi və qadınların dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər təmsilçiliyinə, ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasına təminat verir.

Gender bərabərliyini, ailə, qadın, uşaq hüquqlarını qoruyan və dünyanın bir çox ölkəsinə nümunə ola biləcək ölkəmiz var. Feminizm kimi zərərli fikirlərin və xarici ünsürlərin ailə dəyərlərimizə, milli-mənəvi kimliyimizə zərər verməsinə yol verməməliyik".

**Yeganə Bayramova**



# Mədəniyyət Nazirliyi səssizdir

## 9 ildir Yaşar Nurinin ailəsinin gözü yoldadır

*Bir müddət öncə mərhum sənətkar, Xalq artisti Yaşar Nurinin həyat yoldaşı Rəhimə Nuriyeva mətbuata açıqlamasında gileylənib, onlara Mədəniyyət Nazirliyindən qayğının, diqqətin olmadığını söyləyib. Rəhimə xanım 2012-ci ildən bu günə sözügedən qurumdan Y.Nurinin ailəsinə zəng edilmədiyini xüsusi vurğulayıb.*

Mədəniyyət naziri Anar Kərimov isə yaxın günlərdə sənətkarın ömür-gün yoldaşının şikayətinə baxılacağını, məsələ ilə maraqlanacağını bildirib.

**"Şərq" yenidən R.Nuriyeva ilə əlaqə saxlayıb. O, nazirin açıqlamasından xəbərdar olmadığını deyib:** "Dəfələrlə çıxış etmişəm, sözümü demişəm. Dünəndən bəri nazirliyə zəng edirəm. Martın 10-u Milli Teatr günü idi. Heç olmasa, o zaman maraqlanardılar. Mən mənəvi əzab çəkmişəm, Yaşarın otağından aksesuarları oğurlanıb. Ona görə zəng edərdilər, mənəvi dəstək göstərərdilər. Bu jestlər yoxdur. Kimdənsə çəkinmirəm, deməyə sözüm də, haqqım da var. Belə məsuliyyətsizlik olmaz. Anar müəllim vəzifəyə yeni təyin olunub, onu tanımıram, ya da kimisə qınamıram. Sadəcə elə məsələlər var ki, gündəmə gəlməlidir. 2012-dən bu günə nazirlik bizimlə maraqlanmır. Aidiyyəti orqanlara, qurumlara yazmışam, onlar da Mədəniyyət Nazirliyinə yönləndiriblər. Ordan isə cavab gəlməyib. 9 ildir ki, bir məsələyə belə "hə" cavabı almamışam. Çox maraqlıdır, bu işin sonu necə olacaq? Azərbaycan sənətinə töhfələr verən, "Şöhrət" ordenli insanın ailəsinə qayğı yoxdursa, digər aktyorların yaxınlarının vay halına... Həyatda hər şeyi pul həll etmir, mənəvi dəstək tamam başqadır. Xülasə, hələ ki, mənə nə cavab gəlib, nə də əlaqə saxlayıblar".

**Samirə Ərəblinski**

# Hər gün fəhlə ölür, onlardan az danışırlar

*Ölkənin ən nüfuzlu vətəndaşlarının hüquqları mütləq müdafiə olunmalıdır*

*İl başlayandan bu yana ən müxtəlif ölüm halları ölkəni ağuşuna alıb. İstər koronavirus pandemiyası xəstəliyi səbəbindən, istər intiharlar, istərsə də fəhlə ölümləri gündəmdən düşmür.*

Bir də məlum işçi təbəqəsi olan fəhlələr var ki, onları nə koronavirus qorxudur, nə də zəiflik göstərib intihar qurbanı olurlar. Onlar sadəcə axşamları evlərinə bir tikə çörək apara bilsinlər deyə günün əksər saatlarını ən ağır işlərdə çalışırlar. Ailəsini dolandırmaq üçün canını fəda edən qəhrəman işçilər ölmək fikrindən belə qorxurlar. Axı onlara nəsə olsa arxalarında bir ailə çörəksiz, ailə üzvləri də ərsiz və atasız qalacaqlar. Belə olan halda ölən ölür, araşdırma aparılır və cinayət işi açılır. İşə götürən şirkət isə müəyyən qədər kompensasiya ödəyib geri çəkilir. Bundan sonra isə həmin ailənin gələcəyi, yaşayışı sual altında qalır.

Demək olar ki, hər həftə fəhlə binadan yıxılaraq öldü, üzərinə ağır çəkili əşya düşdü və s. bədbəxt hadisələrlə qarşılaşırıq. Martın 10-u Qaradağ rayonu, Qızıldaş qəsəbəsi ərazisində yerləşən daş karxanasının işçisinin ölməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.

Aparılmış araşdırmalar nəticəsində hadisənin "Gülbaxt TMK" MMC-yə məxsus daş karxanasında baş verdiyi müəyyən edilib. Belə ki, yeni daş yatağının açılması məqsədilə torpaq qatının ekskavatorla təmizlənməsi zamanı daş parçası hündürlükdən yuvarlanaraq yaxınlıqda yerləşən digər daş karxanasının işçisi 1978-ci il təvəllüdlü Hüseynov Arzi Bəhramxan oğlunun üzərinə düşüb, nəticədə fəhlə hadisə yerində ölüb.

Faktla bağlı Qaradağ rayon prokurorluğunda Cinayət Məcəlləsinin 162.2-ci (əmək mühafizəsi qaydalarını pozma ehtiyatsızlıqdan insan ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb.



Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilmiş, məhkəmə-tibb və məhkəmə-texniki təhlükəsizlik ekspertizaları təyin olunmuş və digər zəruri tədbirlər yerinə yetirilib.

Hazırda hadisə üzrə istintaq davam etdirilir. Prokurorluq daş karxanasında ölümlə bağlı cinayət işi açıb.

**Məsələ ilə bağlı hüquq müdafiəçisi Novella Cəfəroğlu "Şərq"ə danışarkən bildirdi ki, fəhlələr ölkənin ən nüfuzlu vətəndaşlarıdır və onların hüquqları müdafiə olunmalıdır:** "Onların hesabına evlər tikilir, yollar salınır, su və qazımız onların əməyi nəticəsində gəlir və s. Buna görə də mən düşünürəm ki, onlar ölkənin ən nüfuzlu, sayılıb-seçilən vətəndaşlarıdır.

Bizim vaxtımızda hər bir müəssisədə təhlükəsizlik şöbəsi təminatı var idi. Müəssisələrdə ölüm də ola bilərdi. O zaman baş mühəndis və rəhbərlərin hər biri bundan cavabdeh idilər. Bütün təminat da onların üzərində olurdu. Həmin müəssisə zərərçəkənin ailəsinə ömür boyu pul ödəyirdi.

Mən istəyərdim indi də elə bir sistem olsun ki, fəhlələr işə qəbul olanda qol çəksinlər ki, onlara bir şey olsa həmin müəssisə hansı məsuliyyəti daşıyacaq, məlum olsun. Bununla bağlı bizə ərizələr gəlsə monitorinq qrupu məsələ ilə bağlı maraqlana bilər. Biz də həmin məsələni qaldıra bilərik.

Burda insan hüquqlarının qorunmasından söhbət gedir. Fəhlələrlə də danışmaq, onlarla seminarlar keçirmək lazımdır ki, onlar da öz hüququnu bilsin.

İndi iş yoxdur. Fəhlə də deyir ki, necə olursa olsun, işləyib pul qazanım. Əsl acınacaqlı hal budur".

**Ağarza Elçinoğlu**

# Koronanın ilk xəbərçisi...

## *Haqlı çıxdı və qəhrəman oldu*

*(əvvəli səh. 16)*

Dr. Li Wenliang yeni yayılmış virusun 2003-cü ildə qlobal bir epidemiyaya səbəb olan SARS-a çox bənzədiyini düşünürdü. O da virusun Uhandakı dəniz məhsulları bazarından gəldiyini düşünürdü. Təbii ki, bu bazarda olanlara hər kəsin fərqli baxışı var idi. Düzdür, Dr. Li Wenliang dostlarına zamanında xəbərdarlıq etmişdi. Bəs nə oldu?

O, dostlarına xəbərdarlıq etdikdən düz dörd gün sonra İctimai Təhlükəsizlik Bürosuna çağırıldı və bir məktub imzalaması tələb olundu. O, "sosial düzəni ciddi şəkildə pozan yalan ifadələr verməkdə" günahlandırıldı. Polislər ona "Sizi xəbərdar edirik: Yenidən inadkarlıqla belə bir təkəbbür göstərsəniz və bu qanunsuz fəaliyyətinizi davam etsəniz, mühakimə olunacaqsınız". Və Dr. Li əl yazısında "Bəli, başa düşürəm" deyə cavab yazdı. Sual yaranır. Niyə belə bir vəziyyət yarandı? Yoxsa insanlar "Dövlət həqiqəti bizdən gizlətdi" deyəndə haqlı idilər?

Beləliklə, nəticə həkimin haqlı olduğunu göstərdi. 2019-cu il yanvar ayının sonunda Dr. Li Wenliang, məktubun bir nüsxəsini bir mikrobloq saytı olan Weibo-da paylaşdı və baş verənləri tək-tək izah etdi. Artan yoluxma sayında yerli hakimiyyət orqanları ondan üzr istədi, lakin bu, çox gec gələn bir üzr idi. Koronavirus yayılırdı və yanvarın ilk bir neçə həftəsində Uhan səlahiyyətliləri təkcə bunun heyvanlara yoluxması barədə israr etdilər və insandan insana yoluxma ehtimalının olmadığını bildirdilər. Bir daha nə olduğunu təxmin edin? Virus insandan insana asanlıqla keçə bildi. Doktor Li Wenliang haqlı idi, lakin hər şey gec idi. "Weibo"dakı yazısında Li Wenliang 10 yanvarda öskürməyə başladığını, ertəsi gün atəşi olduğunu və iki gün sonra xəstəxanaya qaldırıldığını söylədi. Üstəlik, valideynləri də xəstələndi və xəstəxanaya yerləşdirildi. Dr. Li-nin səylərinə baxmayaraq, 10 gün sonra özünü doğruldan bir vəziyyət meydana gəldi. 20 yanvarda Çin epidemiya səbəbiylə təcili vəziyyət elan etdi. Dünya Səhiyyə Təşkilatı iki ay sonra pandemiya elan etdi. Nəticədə bədbəxt son! Hər hekayənin sonunda adətən olduğu kimi, həkim Li Wenliang haqlı olduğu zaman "qəhrəman" oldu. Sosial mediada insanlar ölkəsini vaxtından əvvəl xəbərdar etmək səylərinə görə onu qəhrəman elan etdilər. Doktor Linin ölümündən sonra sosial şəbəkədə izləyicilər şərhlərində "Hazırda necə hiss etdiyinizi unutmayın. Bu qəzəbi xatırlayın. Bunun bir daha baş verməsinə



icazə verməməliyik" deyə yazırdılar. Lakin çinli səlahiyyətlilər əks reaksiyaların öhdəsindən gəlməyə çalışdı və bir çox şərh senzuraya məruz qaldı. Ancaq bir müddət sonra dövlət, xalq Dr. Linin ölümünə yas tutmasına icazə verdi. Bu gün ölümündən bir il sonra milyonlarla insan sosial mediada onun barəsində şərh yazır və hələ də onun yaşadığı kimi davranış nümayiş etdirirlər.

Çinli yazıçı Fang Fang dünyada yüz minlərlə insanın ölümünə səbəb olan Covid-19 pandemiyasının davam etdiyi Uhan şəhərində hadisələri ilk günlərdən bəri internetdə yayımlayırdı və gündəlik paylaşımlar edirdi. Linin də daxil olduğu kitabda müəllif aşağıdakı cümləsi ilə hər şeyi ümumiləşdirir: "Bizim yeganə düşmənimiz virus deyil. Biz eyni zamanda özümüzə düşmənik. Bir çox insan yalnız indi oyanır. Hazırda bir çox siyasi işçilərin səriştəsizliyini görürük".

**Aynurə**

# Yeni texnologiya gəlir

## 10 ildən sonra iclaslara teleportasiya yolu ilə gediləcək



**Feysbukun qurucusu Mark Zukerberq teleportasiya texnologiyasının kəşf olunacağı tarixi açıqlayıb. O deyib ki, 10 il sonra iclaslara "ışınlanaraq" gedəcəksiniz.**

*"Şərq"in məlumatına görə, M.Zukerberq bu barədə "The İnformation"a müsahibəsində danışıb:* "Sosial eksperimentlərin müqəddəsliyi bir başqası ilə birgə olduğunuz hissini verə bilməsindədir. Gələcəyin informasiya platformasının virtual reallığı olacaq və bu sahəyə investisiya etməyin məntiqli olduğuna inanıram. 2021-ci ildəyik bitləri (məlumatların saxlanılmasında ən kiçik fayl vahidi-.red) hərəkət etdirmək atomları tərpətməkdən daha asandır.

Təbii ki, maşınlar, təyyarələr daim olacaq. Amma daha çox teleportasiya edəndə təkcə yer dəyişdirmirik, həm də bizi ləngidən şeyləri aradan qaldırırıq.

Eyni zamanda bunun cəmiyyət və bütün kainat üçün daha yaxşı olduğunu düşünürəm. Virtual reallığa keçid dünya üçün ən yaxşısıdır. Karbon emissiyası da ciddi azalacaq. 10 il sonra iclaslara teleportasiya yolu ilə gedəcəksiniz. Bunun üçün virtual reallıq inkişaf etməlidir. İnkişaf etdiricilərin cəzb edilməsi üçün 10 milyon aktiv istifadəçiyə sahib olunmalıdır və böyük bazara çevrilməlidir.

Bu gün virtual reallıqda harada olduğumuzu düşünəndə eksperiment apara bilərik. Yüksək səviyyəli oyunlar və fərqli təcrübələr mövcuddur. Lakin öz avatarınıza sahib olduğunuz, başqası ilə göz təması qurduğunuz, avatarınıza yansıyan real ifadələrin yer aldığı mərhələyə çatmağı çox istəyirəm".

# Turizmi dirçəltmək bizim də əsas hədəfimiz olmalıdır

## *Lakin görürük ki, pandemiyadan öncəki problemlərdir, dəyişməyib*



Müəyyən ölkələrdə, o cümlədən Azərbaycanda bu ilin ikinci yarısı üçün turizmlə bağlı pozitiv gözləntilər var. Yay turizmi ilə bağlı ümidlərimiz olsa da, bu, ölkədəki epidemioloji vəziyyətdən asılı olacaq, vəziyyətə uyğun qərarlar veriləcək.

Bunu Dövlət Turizm Agentliyinin Media və ictimaiyyətlə əlaqələr sektorunun müdiri Kənan Quluzadə bildirib. Onun sözlərinə görə, pandemiya ilə əlaqədar dünyada, eləcə də Azərbaycanda əsas diqqət daxili turizmin inkişafına yönəldilib. Ümumilikdə bütün dünyada, eləcə də Azərbaycanda bu il prioritet istiqamət daxili turizm olacaq. Qeyd edək ki, artıq Türkiyə və Gürcüstanda turizm sektorunun yenidən inkişafı üçün müəyyən tədbirlər planı həyata keçirilməkdədir. **Mövzuya münasibət bildirən iqtisadçı-ekspert Natiq Cəfərli "Şərq"ə açıqlamasında bildirib ki, turizm sektoru bir çox ölkələr üçün ana sektorlardan biridir:** "Yəni turizm ümumdaxili məhsulun, iş yerlərinin yaradılmasında mühüm rol oynayan əsas sektordur. Çünki arxasınca digər sektorları da aparır. İctimai, iaşə, xidmət sahəsi və s. İlk olaraq qeyd edim ki, Gürcüstan və Türkiyə turizm sahəsində turizmdən daha çox asılı olan ölkələrdən biridir.

> "Bazarda AZAL-ın hegemonluğu var. Başqa şirkətlərin bazarda fəaliyyəti isə məhduddur"

Ona görə də öncədən tədbirlər planının açıqlanması ilə bağlı qərarlar verir. Sanki bununla da bazarı hazırlayırlar, yəni insanları bir növ açılmağa alışdırırlar. Amma bu, tək Türkiyə, Gürcüstan, Azərbaycanla əlaqəli deyil. Gərək, heç olmasa, dünyada sərhədlərin açılması ilə bağlı ümumi bir trend yaransın ki, xarici turizm yavaş-yavaş inkişaf etməyə başlasın".

**Ekspert hesab edir ki, sərhədlər açılsa belə insanların davranış qaydasında baş vermiş dəyişikliklər bir müddət onların səyahət alışqanlıqlarını da dəyişəcək:** "Təbii ki, bunu da nəzərə almaq lazımdır. Azərbaycanda turizm sahəsindəki problemlərə gəldikdə isə təbii ki, bu, pandemiyadan öncəki problemlərdir, yəni dəyişməyib. Misal olaraq, biz də qiymətlər, xüsusilə də aviadaşımacılıq çox bahadır. Yəni bazarda AZAL-ın hegemonluğu var. Başqa şirkətlərin bazarda fəaliyyəti isə məhduddur. Bütün bunlar pandemiyadan öncə də var idi. Pandemiyadan sonrakı dövrdə isə təbii ki, ilk növbədə rəqabətli mühitin artırılması, bilet və otel qiymətlərinin ucuzlaşması ilə bağlı müəyyən aksiyalara ehtiyac var".

**Aynurə Pənahqızı**


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Psixologiya və Para psixologiya** (3-12 ay)

**Tel: (012) 566-88-96**
**(012) 489-08-84**
**Mob: (070) 241-28-67**

**www.az-baku.com**



Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41 538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 478



# BMT: Milyonlarla insan ac qalacaq

2020-ci ilin sonunda dünyada 88 milyon insan aclıqdan əziyyət çəkirdi. Proqnozlar göstərir ki, 2021-ci ildə bu rəqəm artacaq.

Axar.az xəbər verir ki, bu sözləri BMT rəhbəri Antonio Quterreş deyib.

"2020-ci ilin sonunda konfilkt və qeyri-stabillikdən dolayı 88 milyon çox insan kəskin aclıqdan əziyyət çəkib. Rəqəmlər 20 faiz artıb. Proqnozlara görə, qorxulu tendensiya davam edəcək", - deyə Quterreş bildirib.

# Orta nəsil onu unutmayıb

## Kasetin ixtiraçısı vəfat etdi





Bir müddət evimizdə əskik olmayan kasetləri icad edən Lou Ottens, 94 yaşında vəfat edib.

Metbuat.az xəbər verir ki, 1952-ci ildə Filips şirkətində də işə başlayan Ottens, 1960-cı ildə şirkətin yeni məhsul inkişaf şöbəsinə rəhbərlik etməyə başlayıb.

O ilk dəfə, lentləri kiçik kassetlərdə daşımağın yolunu tapıb. Ottensin ixtirasından sonra digər şirkətlər kasetlərin formatını kopyalamağa başladılar. Bu kəşf əvvəlcə kompakt kaset adlandırıldı, sonra yalnız kaset kimi tanınmağa başladı.

Ottens daha sonra Sony şirkəti ilə kasetlərin dünya miqyasında yayılması üçün bir razılaşma əldə edib.

1986-cı ildə təqaüdə çıxan Ottens bir müsahibəsində "İxtiralarınızla fəxr edirsiniz?" "Xeyr, fəxr etmirəm" deyə cavab verib.

# Qoca hamını qorxutdu

## Yıxılarkən ağacdan asılı vəziyyətdə qalıb



Türkiyənin Adıyaman şəhərində qeyri-adi hadisə baş verib.

Sosial şəbəkələrdə yayılan video maraq doğurub.

Kadrlarda yaşlı kişinin ağacda asılı halda qalması əks olunub. İlk baxışda intihara bənzəsə də, o, yıxılarkən ağacdan asılı vəziyyətdə qalıb.

Qonşuların köməkliyi ilə ağacdan düşürülən kişi bildirib ki, ağacı budamaq istəyərkən huşunu itirib, ayağı sürüşüb.

# 6 min dollara satdı

## Üzərində "gülüş" emojisi olan ilan müştərisini tez tapıb



ABŞ vətəndaşının evdə bəslədiyi "Royal Python" adlı ilan növünün dərisi diqqət çəkib.

Sürünənlərə xüsusi sevgi bəsləyən gənc amerikalı ilanının üzərində müxtəlif emojilərə bənzəyən işarələr görüb. Belə ki, həmin ilandan törəyənlərdə də bu hala rast gəlinib. (unikal.org) Onların üzərində "gülüş", "gülümsəmə" və "kədərli" emojilərinə bənzəyən işarələr görmək mümkündür.

Bununla yanaşı amerikalı, ilanları 6 min dollara satışa çıxarıb. Qısa zamanada ilanlarını satmaqla pul qazanan gənc bu növün yenə də ərsəyə gələcəyini bildirib.




# Koronanın ilk xəbərçisi...

## *Haqlı çıxdı və qəhrəman oldu*





Sizcə, koronavirus xəbərini almaqda gecikmiş ola bilərikmi? Koronavirus haqqında əvvəlcədən bilsəydik, vəziyyət həqiqətən fərqli olardı? Ancaq Çinli həkim Li Wenliangın hamımızı xəbərdar etdiyini bilirdinizmi? Bəs nə baş verdi ki, o, xəbər verməkdə gec qaldı? Əslində Li Wenliang kim idi? Gəlin tanış olaq ...

Dünyada koronavirus səbəbindən həyatı dəyişməyən kimsə qalmayıb. "Kaş əvvəlcədən bilsəydik, bəlkə daha ciddi tədbirlər görə bilərdik" dediyimiz koronavirus virusunu kəşf edənlərdən biri 34 yaşlı Dr. Li Wenliang idi. O, 2019-cu il dekabr ayının sonunda qəribə bir vəziyyət gördü. Həmkarlarına bir mesaj göndərməyə çalışdı və onları xəbərdar etmək istədi. 30 dekabr 2019-cu il o, müzakirə aparmaq üçün həkim dostlarına epidemiya barədə bir mesaj göndərdi. Onlara yoluxmamaq üçün qoruyucu paltar geymələrini də xəbərdarlıq etdi. Baxın, bu çox vacib bir xəbərdarlıq idi.

**Aynurə**

*(davamı səh.15)*

# Bled gölünün gözəlliyindən doymaq olmur

## *Bura hər il minlərlə insan axışır*









Bled gölü Sloveniyanın şimal - qərbində, Alp dağlarının ətəyində yerləşən təbii gözəlliklərdən biridir. Bu göl ölkənin ən cəlbedici turizm məkanlarından sayılır. Bura hər il minlərlə insan axışır.

"Şərq" xarici media istinadən xəbər verir ki, Bled gölündəki adada "Məryəm ana" monastrı yerləşir. Bu da Bled gölünün mənzərəsini daha da füsunkar edir.

Gölün səthi qış aylarında bütünlüklə donaraq ona ayrıca gözəllik qatır. Qarla örtülü dağlarla əhatə olunmuş Bled gölündəki bu qeyri-adi mənzərə peşəkar fotoqraflarla yanaşı, həvəskarların da diqqətini çəkir.

**Aytac**



# Arıçı qadınlar yetişdirəcək

## Ancelina Coli yenə fərqləndi

Hollivud ulduzu Ancelina Coli arıçı qadınların mühafizəkar anası olacaq.

Bunun üçün aktrisa "2021-ci il arıçı qadınlar" proqramına qoşulub. Layihəyə Fransanın Provans bölgəsində iyunda start veriləcək.

Növbəti 5 il ərzində həyata keçiriləcək proqramda məqsəd, arıçı qadınlara təlimlər təşkil edərək onları daha inkişaf etdirmək, eyni zamanda 125 milyon arı artırmaqdır. Ancelina layihəyə qatılan qadınların hər biri ilə tək-tək tanış olub, müəyyən görüşlər təşkil edəcək. Proqrama dünyanın bir çox ölkələrindən arıçı qadınlar qatılacaqlar.